# 28 MAY RESPUBLİKA GÜNÜDÜR!



NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 96 (7351) / Çərşənbə axşamı, 28 may 2019-cu il




## Müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq

⇨ Bax: səh. 3



## "Tarixin şah əsərləri"

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ SƏRGİ AÇILIB

⇨ Bax: səh. 5

*Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov:*

## "Azərbaycan-İsrail strateji münasibətləri bütün regionda sülhə və təhlükəsizliyə xidmət edir"

⇨ Bax: səh. 8





⇨ Bax: səh. 10



## "Son iclas" filminin təqdimatı keçirildi

*UEFA prezidenti:*

## Bakıdakı azarkeşlər canlı futbol görmək istəyində haqlı deyillərmi?!

⇨ Bax: səh. 8



⇨ Bax: səh. 9

## SOCAR-ın prezidenti Rövnəq Abdullayevin 28 May - Respublika Günü münasibətilə neftçilərə təbriki




8 Britaniyanın səfiri mətbuat konfransı keçirib

22 "SOCAR AQŞ" "Günəşli"də daha bir quyuda qazma işlərinə başlayıb

24 "Neftçi İdman Klubu" mini-futbol turniri keçirdi

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Hörmətli İlham Heydər oğlu.*

*Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.*

*Sizin ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır.*

*Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər. Əminəm ki, biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik. Heç şübhəsiz ki, bu, dost xalqlarımızın əsas mənafelərinə uyğundur.*

*Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə firavanlıq və rifah diləyirəm.*

*Hörmətlə,*

**Vladimir Putin**
Rusiya Federasiyasının Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Cənab Prezident.*

*Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına həm öz adımdan, həm də həmvətənlərim adından ən xoş arzularımı bildirirəm.*

*Azərbaycan və Almaniya 27 illik dinamik və etibarlı diplomatik əlaqələrə malikdirlər. Bu il biz Bakıdakı Alman Dili Tədris Mərkəzinin 10 illik yubileyini qeyd edirik. Mən çox şadam ki, alman dilinin tədrisinə və alman mədəniyyətinə Azərbaycanda belə yüksək münasibət bəslənilir. 2018-ci ildə açılmış Höte Mərkəzi mədəniyyət sahəsində əməkdaşlığımızı daha da gücləndirdi. Almaniya, həmçinin siyasi dialoqu da davam etdirməyə daim hazırdır.*

*Mən Sizə xoş diləklərimi çatdırır və Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.*

**Frank-Valter Ştaynmayer**
Almaniya Federativ Respublikasının Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və həmvətənlərinizə səmimi təbriklərimi çatdırmaq mənim üçün yaranmış xoş fürsətdir. Ulu Tanrıdan diləyim odur ki, həmrəylik və ədalət naminə apardığımız ümumi işlərimizdə qoy bizə dəstək olsun, ölkənizin vətəndaşları ailə səadətinə və sosial rifaha qovuşsun, gənclərimiz gələcəyə ümidlə yaşasınlar.*

*Zati-alinizə, hökumətinizin üzvlərinə, o cümlədən bütün Azərbaycan xalqına Ulu Tanrının xeyir-duasını diləyirəm.*

*Hörmətlə,*

**Fransisk**
Roma Papası

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi İspaniya Hökuməti və xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Zati-aliləri, Sizə xoşbəxtlik və uğurlar, əziz Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

Dərin hörmət və ehtiramla,

**VI Felipe**
İspaniyanın Kralı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Hörmətli cənab Prezident.*

*İcazə verin, Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi qəlbdən təbriklərimi və ən xoş arzularımı bildirim.*

*Böyük məmnunluq hissi ilə qeyd etmək istərdim ki, son illərdə ölkələrimiz arasında əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan bizim üçün mühüm tərəfdaşdır və biz Sizin ölkə ilə ümumi tarixi və mədəni əlaqələri bölüşürük.*

*Macarıstanın ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmləndirilməsinə və qarşılıqlı faydalı əməkdaşlığımızın genişləndirilməsinə sadiq qaldığını bir daha təsdiq edirəm.*

*Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar və cansağlığı arzulayır, Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.*

*Dərin hörmətlə,*

**Yanoş Ader**
Macarıstanın Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Hörmətli İlham Heydər oğlu.*

*Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.*

*Azərbaycan Respublikası sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafın dayanıqlı templərini nümayiş etdirir, bu da şübhəsiz ki, ölkənin dünya arenasında nüfuzunun möhkəmlənməsinə təsir edir.*

*Əminəm ki, Ukrayna və Azərbaycan arasında mövcud əməkdaşlıq gələcəkdə də strateji tərəfdaşlıq ruhunda və dövlətlərimizin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsi əsasında inkişaf edəcək.*

*Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.*

*Hörmətlə,*

**Vladimir Zelenski**
Ukrayna Prezidenti

# Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli mənlik şüurunu özünə qaytardı

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT EDİB



**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

* * *



Yüz bir il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.



Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May - Respublika Günü bu il də milli bayram kimi qeyd edir.

# Müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq

## Prezident İlham Əliyev 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib



***Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.***

***Rəsmi qəbul Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başladı.***

***Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.***



### Prezident İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir.

İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır. Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım Ulu Öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunması sında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik.



Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

⇨ Davamı 4-cü səhifədə

# Müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq

## Prezident İlham Əliyev 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib

⇨ Əvvəli 3-cü səhifədə





Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir.

Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi - bütün bunlar son illər ərzində görülmüş işlərdir.

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşması yubanır. Ona görə, bundan sonrakı dövrdə mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Ancaq bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə böyük dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma "Dağlıq Qarabağ respublikası"nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Ancaq hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bu günə qədər 2 milyon iş yeri yaradılmasına baxmayaraq, yenə də işsizlik var. Düzdür, başqa ölkələrə nisbətən Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır, ancaq biz hesab edirik ki, bundan sonra da bu istiqamətdə addımlar atılmalıdır. Bu ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılmışdır. Ancaq, əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhranları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq. O dövlət ki, milli-mənəvi dəyərlər üzərində qurulub. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimizdir, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə və bütün digər sahələrdə öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq! Sağ olun.

* * *

***Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam etdi.***



## EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM SAHLE-UORK ZEVDEYƏ

Hörmətli xanım Prezident,

Efiopiyanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 may 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*İcazə verin ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə öz təbriklərimi və Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı çatdırım.*

*Hörmətlə,*

**Villem-Aleksandr**
Niderlandın Kralı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Hörmətli cənab Prezident.*

*Sizi Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təbrik edirəm. İcazə verin, Sizə ölkənizin və xalqınızın rifahı və firavanlığı üçün ən xoş arzularımı çatdırım.*

*Zati-alinizin səyahət və turizm sahəsinə şəxsi dəstəyi ölkənizin turizmə davamlı sosial-iqtisadi inkişaf vasitəsi və Azərbaycanın dünya turizmində güclü bir brend kimi formalaşmasına verdiyi önəmi xüsusi vurğulayıram.*

*Dünya Turizm Təşkilatının Sizin fəaliyyətinizə daimi dəstəyinə əmin ola bilərsiniz. İnanıram ki, gələcək illərdə Azərbaycan və Dünya Turizm Təşkilatı arasında mövcud olan mükəmməl əlaqələr daha da inkişaf edəcək və genişlənəcək. İyunun 16-18-də Bakıda keçiriləcək Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasında iştirakınızla bizə şərəf verməyinizi səbirsizliklə gözləyirəm.*

*Cənab Prezident, Sizi bir daha təbrik edirəm. Zati-alinizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

*Hörmətlə,*

**Zurab Pololikaşvili**
Dünya Turizm Təşkilatının Baş katibi

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Hörmətli cənab Prezident.*

*İcazə verin, milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş təbriklərimi çatdırım. Ölkənizə və xalqınıza səmimi qəlbdən davamlı rifah, inkişaf və müvəffəqiyyətlər arzulayıram.*

*Ümidvaram ki, Azərbaycan ilə Litva arasında həm ikitərəfli səviyyədə, həm də Avropa İttifaqı çərçivəsində mövcud olan dialoq genişlənəcək, həmçinin hərtərəfli əməkdaşlığın yaratdığı imkanlar xalqlarımız arasında biznes, ticarət, elm, təhsil, innovasiya, mədəniyyət və turizm sahələrində qarşılıqlı fəaliyyətin daha da inkişafına, dövlətlərimizin əməkdaşlığının möhkənlənməsinə kömək edəcək.*

*İcazə verin, Sizi milli bayramınız münasibətilə bir daha təbrik edim.*

*Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

*Hörmətlə,*

**Dalya Qribauskayte**
Litva Respublikasının Prezidenti

# "Tarixin şah əsərləri"

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ SƏRGİ AÇILIB

**Mayın 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarət "Tarixin şah əsərləri" adlı sərginin açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, beş il əvvəl Gürcüstan Milli Muzeyində Azərbaycana aid minlərlə tarixi, mədəni artefaktın olduğu məlum oldu. Bununla əlaqədar Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban







Əliyevaya məlumat verildi və qərara gəlindi ki, bu materiallar əsasında möhtəşəm sərgi təşkil olunsun.

Sərginin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirən Fuad Axundov bu işin ərsəyə gəlməsində Mədəniyyət Nazirliyinin və Gürcüstan Milli Muzeyinin birgə xeyli iş gördüyünü diqqətə çatdırıb. "Sərgidə nümayiş olunan şəkillərin böyük bir qismi bərpa edilib. Gürcüstanın Milli Muzeyi yaranan gündən bu artefaktları toplayaraq günümüzədək qoruyub saxlayıb. Buna görə gürcüstanlı həmkarlarımıza təşəkkürümü bildirirəm", - deyə o qeyd edib.





Gürcüstan Milli Muzeyinin baş direktoru, akademik David Lordkipanidze bildirib ki, sərgidə nümayiş olunan qədim sənət nümunələrini Azərbaycan sənətçilərinin şah əsəri hesab etmək olar. O, sərginin tamaşaçıların rəğbətini qazanacağına əminliyini ifadə edib.

Diqqətə çatdırılıb ki, oktyabrın 6-dək davam edəcək sərgidə 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası və rus fotoqraf Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur.

Sərgidə Qacarlar epoxasına aid qədim incəsənət nümunələrinin əksəriyyəti Fətəli şah dövrünə aid dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalarla təqdim edilir. Təsvirin gücünü yaxşı bilən Fətəli şah nüfuzunu və nailiyyətlərini nümayiş etdirmək üçün memarlıq, rəsm və dekorativ sənətdən geniş istifadə edirdi. Sərgidə Fətəli şahın özünün portreti də yer alıb.

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, Azərbaycan təsviri incəsənətinə böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş altı əsəri sərgilənir. Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunub.

Mirzə Qədim İrəvani tikmə üçün olan trafaret rəsmləri, divar naxışları, zərgərlik məmulatları, lakla çəkilmiş rəsm əsərləri və şüşə rəssamlığı ilə tanınır. XIX əsrin ortalarında İrəvan xanlığının Sərdar sarayının salamat qalmış orijinal əsərlərini, həmin saray kompleksinin məscid və sarayının dekorunda işlədilən plitələri yenidən boyamış şəxs məhz o olub.

Qeyd edilib ki, Sərdar sarayının arxeoloji qalıqları arasında İrəvan xanlığı və müasir Ermənistan ərazisində yaşamış Azərbaycan xalqına məxsus ənənəvi kostyum və əşyalar, eləcə də mebel nümunələri, vazalar və digər gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim olunur. Bu eksponatlarla tanışlıq o dövrün həyat və məişət mənzərəsini daha aydın təsəvvür etməyə imkan verir, sarayın memarlıq üslubunu nümayiş etdirir.

Sərgidə hərbi topoqraf kimi çalışan, sonra isə 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsində iştirak etmiş D.Yermakovun fotoşəkillərindən ibarət kolleksiya da təqdim olunur. Müharibədən sonra Yermakov Tiflisdə foto işi ilə məşğul olub, Qafqaz bölgəsinə səyahətlər edib və bir sıra arxeoloji ekspedisiyalarda fəaliyyət göstərib. O, İrəvan qalasının nadir tikililəri - Sərdar Sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatları ilə göstərən fotoşəkillər silsiləsini yaradıb.

Tədbir çərçivəsində, həmçinin Gürcüstan Milli Muzeyinin baş kuratoru, tarixçi professor Eldar Nadiradzenin "İrəvan xanlığı: tarixi və mədəni profili" kitabının təqdimatı keçirilib.

Kitabın müəllifi, professor Eldar Nadiradze nəşr haqqında fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan, ingilis və rus dillərində nəşr olunan kitabda İrəvan xanlığının tarixi, hökmdarları, İrəvan qalası uğrunda aparılan döyüşlər, xanlığın Azərbaycan tarixində oynadığı rol barədə müfəssəl məlumatlar əksini tapıb. Kitabda İrəvan xanlığının tarixindən bəhs edən foto və rəsm əsərləri, Gürcüstan Milli Muzeyində saxlanılan nadir eksponatların şəkilləri yer alıb.

Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında olub



Mayın 27-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbələri Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında olublar.



AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və akademiyanın tələbələri klinikada müalicə alan uşaqlarla görüşərək onlara rəsm çəkməyi öyrədiblər.

Leyla Əliyevanın, Rəssamlıq Akademiyasının tələbələrinin bu təşəbbüsü, uşaqlarla birlikdə rəsm çəkmələri balacalar üçün əsl sürpriz olub. Bu, ağır xəstəlikdən əziyyət çəkən uşaqların əhval-ruhiyyəsini yüksəldib.











# "Yoqa və düşüncənin gücü"









Bakı Kitab Mərkəzində hindistanlı guru, mistik və yoq Svami Şivanandanın Azərbaycan dilinə tərcümə olunmuş "Yoqa və düşüncənin gücü" adlı kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, layihənin təşəbbüskarı, ideya müəllifi və ön sözün müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

Tədbiri Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva açaraq kitabın əhəmiyyəti haqqında danışıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da iştirak etdiyi mərasimin aparıcısı Əməkdar artist Nərgiz Cəlilova çıxışçıları qonaqlara təqdim edib.

Tədbirdə çıxış edənlər - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının Psixologiya fakültəsinin dekan müavini, Respublika Humanist Pedaqogika Mərkəzinin rəhbəri Riza Xəlilov, Hindistanın Azərbaycandakı səfiri Bavitlunq Vanlalvavna, ənənəvi Svami Şivananda Yoqa Məktəbinin nümayəndəsi Elçin Quliyev yoqa fəlsəfəsindən, faydasından, yoqa ilə məşğul olan insanın qidalanmasından, gündəlik həyat tərzindən, yoqanın xəstəlikləri müalicə etmək metodlarından danışıblar.

Təqdimatın bədii hissəsində müğənni Rinat Alimov sanskritcə mantra (dua) ifa edib. Rəqqasə Səidə Əliyevanın ifasında hind rəqsləri, Elçin Quliyevin tələbələrinin ifasında yoqa və nəfəs hərəkətləri təqdim olunub.

Svami Şivananda İlahi Yaşam Cəmiyyətinin banisidir. O, yoqa və vedanta təliminin təbliğatçısı və mənəvi ustadıdır. Oxuculara təqdim edilən "Yoqa və düşüncənin gücü" adlı kitab yoqa fəlsəfəsi və təcrübəsinin müxtəlif aspektlərini əks etdirir. Bu kitab dünyanın bir çox dillərinə tərcümə olunub və mənəvi irs tarixində nüfuzlu yer tutur. Kitabda oxucular yoqanın faydaları, yoqa pəhrizi, şüurun idarə olunması, müxtəlifliyi, düşüncənin idarə edilməsinin pozitiv metodları, düşüncə gücünün əhəmiyyəti, müxtəlifliyi, inkişaf dinamikası və tətbiqi kimi mövzularla tanış ola biləcəklər.

Yoqa adətən min illər öncə yaranan və kökü Hindistan fəlsəfəsinə dayanan əbədi ənənə kimi qəbul edilir. Yoqa ilə məşğul olan insanın tədricən qidalanma rejimi müsbət tərəfə doğru dəyişir. Yoqa insana düzgün həyat tərzi və standartları aşılayır.











# *Prezident İlham Əliyev:* Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi



**Bu gün müsəlman Şərqində ilk parlamentli respublikanın- Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101 illiyi tamam olur. Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.**

Ən böyük hadisə o idi ki, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

Azərbaycanın müasir dövrdə sürətli inkişafını təmin edən Prezident İlham Əliyev əslində bu siyasəti ilə 101 il bundan əvvəl yaranmış AXC-nin həyata keçirə bilmədiyi ideyaları və islahatları həyata keçirdi.

Dünən 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev AXC dövrünə və onun yaradıcılarının fəaliyyətinə yüksək qiymət verərək bildirmişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur: “Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir.”

Bu bir həqiqətdir ki, Azərbaycanın ikinci dəfə müstəqillik əldə etməsi də mürəkkəb tarixi şəraitdə və çox çətinliklə baş verdi. Lakin müstəqilliyini yenicə qazanmış Azərbaycan dövləti onu itirmək təhlükəsi ilə üzləşəndə öz inanılmış liderinə böyük siyasət adamı Heydər Əliyevə üz tutdu, ona güvəndi. Bu barədə Prezident İlham Əliyev dünənki çıxışında bildirib ki, iyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi: “Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır. Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım Ulu Öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.”

Prezident İlham Əliyev müstəqilliyimizin qorunması və möhkəmlənməsi istiqamətində ulu öndər Heydər Əliyevin titanik fəaliyyətindən danışıb: “1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.”

Azərbaycanı məhz 1993-cü ildəki vətəndaş müharibəsindən, o cümlədən bir neçə dövlət çevrilişindən qurtaran Ulu Öndər ölkəmizə iqtisadi dirçəliş, xalqımıza frivanlıq, cəmiyyətmizə siyasi sabitlik gətirdi. Bununla da Azərbaycan adlı bir dövlət yoxdan var oldu, dünyada tanındı, sözü eşidildi. Prezident İlham Əliyev bu dövrü belə xarakterizə edir ki, 1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi: “Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi.”

Bu gün Azərbaycan ona görə qüdrətlidir ki, Ulu Öndərin siyasəti daha geniş və daha müdrikcəsinə aparılır. Həmin siyasətin öndəri Prezident İlham Əliyevdir, əsas aparıcı amili isə xalq-qtidar birliyidir. Ölkəmizin başçısı bu reallığı dünənki nitqində belə dəyərləndirir: “Bu gün Azərbaycan Heydər Əliyev tərəfindən təməli qoyulmuş strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik.”

Azərbaycan dövlətinin var olma qarantı isə güclü Ordumuzun formalaşmasıdır. Bu ordu indi nəinki bölgənin, hətta dünyanın 55 ən güclü ordusu sırasındadır. Ona xalqımız güvənir, onun inkişafına hər zaman dəstək olur. Prezident İlham Əliyevin Ordumuzla bağlı dəyərli fikirləri hər bir Azərbaycan vətəndaşında qürur yaradır: “Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır”

Prezident İlham Əliyevin bu çıxışındakı fikirlər və yeni ideyalar əslində ölkəmizin tarixinə verilən qiymətdir, eyni zamanda, inkişafayönəlik bir tezisdir.

**Elçin Zaman,**
***“İki sahil”***

*Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov:*

# "Azərbaycan-İsrail strateji münasibətləri bütün regionda sülhə və təhlükəsizliyə xidmət edir"



**Müasir mərhələdə Azərbaycan ilə İsrailin qarşılıqlı münasibətləri, o cümlədən Azərbaycan neftinin İsrail dövlətinə böyük həcmdə ixracı, iki ölkə arasında sıx hərbi-texniki əməkdaşlıq məsələləri möhkəm strateji xarakter daşıyır. İki dövlətin münasibətlərində insan amili də mühüm rol oynayır. Xalqlarımız arasında əsrlərboyu yaxşı, səmimi münasibətlər formalaşıb.**

AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Odlar Diyarında səfərdə olmuş israilli jurnalist Daniel Tsemax İsrailin nüfuzlu İ24 telekanalında İsrail ilə Azərbaycan arasında münasibətlərin indiki səviyyəsi barədə danışıb.

İsrailli jurnalist deyir: "Azərbaycan müdafiə nazirinin müavini Kərim Vəliyev İsrail-Azərbaycan münasibətlərinin səmimi xarakterini vurğulayaraq bizi - israilli jurnalistləri "Şalom ma nişma" sözləri ilə qarşıladı. Həqiqətən bu münasibətlər o dərəcədə səmimi və yaxındır ki müdafiə nazirinin müavini israilli jurnalistləri öz dəftərxanasında qəbul edirdi.

Biz Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə də görüşdük. O dedi: "Mənim fikrimcə, Azərbaycan-İsrail dövlətlərarası münasibətlərini başqa ölkələr üçün yaxşı nümunə hesab etmək olar. İslam dünyasının bir hissəsi olan Azərbaycan bu gün həm İsrail ilə, həm də dünyanın bir sıra başqa ölkələri ilə çox yaxşı, etimada əsaslanan konstruktiv münasibətlər yaradıb".

D.Tsemax öz süjetində qeyd edir ki, əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan sülhsevər ölkədir. Bu ölkənin, eyni zamanda həm qardaş Türkiyə ilə müttəfiqlik münasibətləri, həm İranla, həm də İsrail ilə səmimi dostluq münasibətləri Azərbaycan rəhbərliyinin incə, çoxvektorlu xarici siyasətini təsdiq edir.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi professor Əli Həsənov: "İsrail ilə bizim xüsusi strateji münasibətlərimiz var. Azərbaycan-İsrail strateji münasibətləri bütün regionda sülhə və təhlükəsizliyə xidmət edir. Bizim yüksək səviyyəli siyasi dialoqumuz, sabit iqtisadi əlaqələrimiz var. İsrail ilə hərbi-texniki əməkdaşlıq sayəsində biz İsraildən ən müasir hərbi texnologiyaları alırıq, bu isə bizim hərbi qüdrətimizi möhkəmlətməyə imkan verir".

Daniel Tsemax qeyd edir ki, Azərbaycan İsraili dünyada özünün dörd mühüm strateji tərəfdaşından biri hesab edir. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb: "İsrail bizim hərbi sənaye kompleksinin inkişafında fəal iştirak edib. Biz İsrail xalqını və İsrail dövlətini yüksək qiymətləndiririk və onlara hörmət edirik. Biz bütün sahələrdə Azərbaycan-İsrail münasibətlərinin möhkəmləndirilməsi və dərinləşdirilməsi üzərində işi bundan sonra da davam etdirəcəyik".



Azərbaycan müdafiə nazirinin müavini Kərim Vəliyev jurnalistlərlə söhbətində vurğulayıb ki, Azərbaycanın arsenalında hava hücumundan müdafiə sistemindən başlamış pilotsuz uçuş aparatlarına qədər müasir İsrail silahları var. Bu yaxınlarda Ermənistanla silahlı münaqişədə Azərbaycan həmin silahlardan fəal şəkildə və uğurla istifadə edib.

General Kərim Vəliyev deyib: "Ermənistan ilə münaqişənin həll edilməməsi səbəbindən biz torpaqlarımızı işğaldan azad etməyə hazırlığı davam etdirməyə məcburuq. Doğrudur, qan tökülməsini heç kəs istəmir, lakin Ali Baş Komandan əmr verən kimi biz həmişə torpaqlarımızı azad etməyə hazırıq".

Qeyd etmək lazımdır ki, sonuncu Aprel döyüşləri zamanı Azərbaycan İsrailin hərbi texnologiyalarından real olaraq və uğurla istifadə edib.

Daniel Tsemax İsrailin nüfuzlu İ24 xəbər telekanalında İsrail-Azərbaycan münasibətlərinə həsr olunmuş süjetin sonunda deyir: "Bu gün Azərbaycan ilə İsrail arasında münasibətlər bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Artıq neçə ildir ki, israilli mütəxəssislər Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, aqrosənaye kompleksi və sənaye sahələrində çalışır, ən yeni texnologiya və avadanlığı tətbiq edirlər. Azərbaycan İsrail üçün çox böyük geostrateji və geosiyasi əhəmiyyət kəsb edir".

# Britaniyanın səfiri mətbuat konfransı keçirib




Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər geniş təcrübəyə malikdir. Britaniyanın Bakıdakı səfirliyi Azərbaycan Hökuməti, hər iki ölkənin futbol federasiyaları, klubları ilə fəal əməkdaşlıq edir və bu sahədə çox işlər görülüb. UEFA Avropa Liqasının final qarşılaşması ilə əlaqədar səfirlik Bakıya gələcək ingilis azarkeşlər üçün lazımi məlumatların olduğu xüsusi broşür hazırlayıb.

AZƏRTAC xəbər verir ki, bunu Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Kerol Krofts UEFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşması ilə əlaqədar mayın 27-də təşkil etdiyi mətbuat konfransında deyib.

28 May - Respublika Günü münasibətilə Azərbaycan xalqını təbrik edən diplomat ölkələrimiz arasında idman sahəsində əlaqələrdən danışarkən Bakıda keçiriləcək final oyunun əhəmiyyətini xüsusi qeyd edib. Kerol Krofts futbol üzrə İngiltərə millisinin 1966-cı ildə azərbaycanlı yan xətt hakimi Tofiq Bəhramovun düzgün qərarı sayəsində tarixində ilk dəfə dünya çempionu olduğunu bildirərək deyib: "Böyük Britaniya-Azərbaycan futbol əlaqələri barədə danışarkən ilk ağla gələn Tofiq Bəhramovdur. 1966-cı ildə keçirilən dünya çempionatının ildönümü ilə əlaqədar 2016-cı ildə biz Tofiq Bəhramovun ailəsini ziyarət etdik. Tofiq Bəhramovun ailəsi bizə onun arxivindən fotoşəkillər təqdim etdi. Həmin fotoşəkillər Azərbaycan ilə Böyük Britaniya arasında yüksək səviyyəli əlaqələrin rəmzlərindən biridir. Həmin il Tofiq Bəhramovun ailəsi Kraliça II Elizabetin doğum günü məclisinə dəvət edilib və orada onlara Tofiq Bəhramovun tarixi oyunda geyindiyi forma təqdim olunub.

Səfir Böyük Britaniya vətəndaşlarının Azərbaycana təkcə futbol matçlarında deyil, Formula 1, cüdo və idmanın digər növləri üzrə keçirilən idman yarışlarını izləmək üçün də səfər etdiklərini bildirib. Ölkəmizdə Birləşmiş Krallığın 500-dək şirkətinin fəaliyyət göstərdiyini və Britaniya icmasının mövcudluğunu qeyd edən diplomat bildirib ki, UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" klubları arasında final qarşılaşması ilə əlaqədar səfirlik AFFA və Azərbaycan hökuməti, eləcə də Britaniya polisi ilə sıx əməkdaşlıq edir. Səfirlik daha çox Britaniya vətəndaşının final oyununu izləmək üçün Bakıya gəlməsinə çalışır. O, final yarışı günü bir neçə çarter reysi ilə azarkeşlərin Bakıya gələcəklərini bildirib.

Diplomat mayın 29-da "Arsenal" və "Çelsi" klubları arasında möhtəşəm final matçının oynanılacağına əminliyini bildirib.

Qeyd edək ki, UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün Londonun "Arsenal" və "Çelsi" klubları arasında oynanılacaq final qarşılaşması saat 23:00-da başlayacaq.

*UEFA prezidenti:*

## Bakıdakı azarkeşlər canlı futbol görmək istəyində haqlı deyillərmi?!



UEFA prezidenti Aleksandr Çeferin "Der Şpigel" nəşrinə müsahibəsində Avroliqanın final oyununun keçirilməsi üçün niyə Bakını seçdiklərini açıqlayıb: "Niyə? Çünki orada yaşayan insanlar futbolu sevirlər. Təkcə İngiltərə və Almaniyada deyil, hər yerdə futbolu inkişaf etdirməliyik. Bakıdakı azarkeşlər canlı futbol görmək istəyində haqlı deyillərmi?! Klublar birbaşa biletləri geri qaytarıblar, çünki hamısını sata bilməyiblər. Yeri gəlmişkən, mən asanlıqla uçuşlar üçün aviabiletlərin olduğunu söylədim. Lakin kimsə bu haqda danışmır. Həmişə UEFA günahkar kimi göstərilir. Bu populizmdir. Hər klubun səyahət edən azarkeşlərini dəstəkləmək üçün konstruktiv təklifi, yaxud fondu olur", - Çeferin bildirib.

UEFA prezidenti qeyd edib ki, əlbəttə Bakı Londondan uzaqdır, lakin yeri təyin edərkən, finalda hər iki komandanın İngiltərədən olacağı bilinmirdi.

Çeferi erməni əsilli futbolçu Henrix Mxitaryanın təhlükəsizlik bəhanəsi ilə Bakıya gəlməməsinə də toxunub. "Azərbaycan hərtərəfli təhlükəsizlik planı və zəmanət təqdim etdi. Lakin gəlməmək oyunçunun öz qərarı idi", - deyə UEFA prezidenti vurğulayıb.

# SOCAR-ın prezidenti Rövnəq Abdullayevin




# RESPUBLİKA GÜNÜ

## münasibətilə neftçilərə təbriki



### ƏZİZ HƏMKARLAR!

***Sizi 28 May - Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə uzun ömür, möhkəm cansağlığı, ölkəmizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi naminə fədakar əməyinizdə yeni-yeni uğurlar arzulayıram.***

Azərbaycanda istiqlal günəşinin doğduğu 1918-ci il 28 may günü dünya tarixinə Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün kimi həkk olunmuşdur. Ömrü nə qədər qısa olsa da, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən hətta Qərbin qabaqcıl ölkələrinə belə nümunə ola biləcək hüquqi-demokratik dövlət təsisatları yaradılmış, bu istiqamətdə qətiyyətli addımlar atılmışdır. Qadınlara seçki hüququnun verilməsi, demokratik parlament, nizami ordu, peşəkar təhlükəsizlik orqanları, ilk müasir tipli universitet - bütün bunlar Şərq dünyasında ilk dəfə məhz Azərbaycan Xalq Cümhuriyyətinin timsalında təşəkkül tapmışdır.

Sonralar xalqımız keçmiş Sovetlər birliyinin hüdudları çərçivəsində yaşamağa məcbur olsa da, milli azadlıq ruhunu heç vaxt unutmadı və XX əsrin sonlarında dövlətimizin müstəqilliyini dünyaya bəyan edən üçrəngli bayrağımızı yenidən göylərə yüksəltdi. Lakin bununla eyni zamanda, ölkəmizə qarşı daha da güclənən hərbi təcavüz, daxildəki siyasi qeyri-sabitlik, dərin sosial-iqtisadi böhran Azərbaycanın istiqlaliyyətini təhlükə qarşısında qoyurdu. O zaman xalq öz müdrik qərarını verdi və həqiqi liderini - zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əliyevi hakimiyyətə gətirdi. Tarix də sübut etdi ki, o çətin anlarda dövlətimizin gələcəyini yalnız ulu öndər Heydər Əliyevin dərin və uzaqgörən siyasəti xilas edə bilərdi. Ümummilli lider Heydər Əliyev müdrik qərarları, dəmir iradəsi, dönməz qətiyyəti və gələcəyə yönəlmiş addımları ilə çox keçmədən ölkədə vətəndaş qarşıdurmasının qarşısını aldı, dövlətçiliyimizin əsaslarını möhkəmləndirdi. Cəbhə bölgəsində atəşkəs əldə edildi və ölkə iqtisadiyyatında dönüş yaradan nəhəng layihələrə imza atıldı.

### ƏZİZ NEFTÇİLƏR!

Ulu Öndərin Azərbaycanı azadlığa və rifaha aparan siyasi kursunun bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən inamla davam etdirilməsi bütün xalqımıza sonsuz fərəh və qürur verir. Ölkəmizin sosial-iqtisadi uğurlarına daim dəyərli töhfələr verən neftçilərimiz həmişə olduğu kimi, bu il də 28 may gününün yaratdığı möhtəşəm bayram əhval-ruhiyyəsinə böyük əmək qələbələrinin sevincini qatır. Biz neftçilər daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf proseslərinin önündə getməyə çalışırıq. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və müdrik Prezidentimizin rəhbərliyi ilə uğurla davam etdirilən qalibiyyətli enerji strategiyamız çərçivəsində regional və qlobal əhəmiyyətli yeni-yeni layihələrə imza atır, Azərbaycanın şöhrətini bütün dünyaya yayır, geosiyasi mövqeyini möhkəmləndiririk. Azərbaycan neftçiləri dövlət müstəqilliyimizin əbədiliyi ideyasına sədaqətini sözdə deyil, əməldə, fədakar əməkləri ilə nümayiş etdirirlər.

### ƏZİZ HƏMKARLAR!

***SOCAR ailəsinin hər bir üzvünü bu əlamətdar gün - 28 May - Respublika Günü münasibəti ilə bir daha ürəkdən təbrik edir, ölkəmizdə davamlı inkişaf proseslərinin həyata keçirilməsində üzərinizə düşən çətin və şərəfli vəzifələrin yerinə yetirilməsində Sizə uğurlar arzulayıram.***

*Hörmətlə,*

**Rövnəq Abdullayev,**
SOCAR-ın prezidenti

# “Son iclas” filminin təqdimatı keçirildi

**Mayın 25-də Yeni Azərbaycan Partiyasının Mərkəzi qərargahında 28 May - Respublika Günü münasibətilə Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş “Son iclas” filminin təqdimatı keçirildi.**














Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, Azərbaycanın tarixində əlamətdar hadisələrdən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101-ci ildönümünü qeyd edirik: “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycanın dövlətçilik tarixində əlamətdar və şanlı səhifələrdən birini təşkil edir. Azərbaycan xalqı onilliklər, yüzilliklər ərzində qəlbində yaşatdığı müstəqillik ideyalarını həyata keçirməyə nail oldu. Şərqdə ilk demokratik respublika Azərbaycanda elan edildi. İlk dəfə olaraq xalqımız yeni müasir dövlətçilik ənənələrinə sahib çıxan dövlət qurmağa nail oldu. Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə dövlətin yaranması, ayrı-ayrı sahələrdə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, dövlət qurumlarının formalaşdırılması istiqamətində çox vacib işlər gördü, etibarlı bünövrə yaratdı. Qısa müddətdə mürəkkəb bir dövrdə təbii olaraq, Azərbaycan Xalq Cümhuriyyəti istədiyi bütün işləri yüksək səviyyədə yerinə yetirməyə müvəffəq olmadı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. 23 ay yaşadıqdan sonra süqut etdi. Amma Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti heç də başa çatmadı. Çox ağır zamanlarda mövcud olmasına baxmayaraq böyük ideyalar qoyub getdi, əkilmiş toxumlar öz bəhrəsini verməyə başladı. Bunun ən vacib cəhətlərindən biri ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması özü-özlüyündə Azərbaycan xalqının azadlıq məfkurəsini milli ideyaya çevirdi. 1920-ci ilin aprelində müstəqillik itirilsə də, bu ideya xalqın qəlbində yaşadı və gələcəkdə Azərbaycanın yenidən müstəqilliyə qovuşması üçün çox əhəmiyyətli bir tarixi missiyanı yerinə yetirdi.”

“Azərbaycan Xalq Cümhuriyyətinin digər bir əhəmiyyəti odur ki, onun yaranması ilə bir daha gələcəkdə Azərbaycanın müsteqllik qazanması üçün hüquqi bünövrə yaranmış oldu” söyləyən Ə.Əhmədov qeyd etdi ki, çünki 1920-ci ildə müstəqil Azərbaycan dövləti süqut etdikdən sonra Rusiya imperiyasının yerində sovet imperiyası yarandıqda Azərbaycan quruma İttifaq respublikalarından biri kimi qoşuldu: “1991-ci ildə SSRİ süqut etdikdə isə Azərbaycan müstəqilliyini bərpa etdi. Azərbaycan artıq 28 ilə yaxındır ki, müstəqil dövlət kimi yaşayır, inkişaf edir, biri-birindən əhəmiyyətli uğurlara imza atır.”

YAP Sədrinin müavini bildirdi ki, müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir: “Bu gün Azərbaycan müstəqilliyini qoruyub saxlayır, daha da möhkəmləndirir. O dövrdə müstəqillik ideyalarının carçısı olan Məmmədəmin Rəsulzadə, Əlimərdanbəy Topçubaşov, Fətəlixan Xoyski, Nəsibbəy Yusifbəyov və böyük fədakarlıqlar göstərmiş digər insanların ideyaları, arzuları bu gün yaşayır və həyata keçirilir. Əgər onlar yaşasaydılar indiki Azərbaycanın uğurlarından iftixar hissi keçirərdilər. Sözün əsl mənasında müasir müstəqil Azərbaycan Heydər Əliyev ideyaları əsasında möhkəmləndi, inkişaf etdi. Bu gün müstəqil dövlətimiz XXI əsrin ən uğurlu gənc dövlətlərindən biri kimi özünü təsdiq edib. Həyatın bütün sahələrində böyük uğuların əldə olunmasına nail olub. Azərbaycan dünyanın ən inkişaf edən dövlətlərindən biridir, iqtisadi inkişafı dünyada etiraf olunur. İqtisadiyyatın sürətli inkişafı demokratikləşmə prosesinin daha da sürətlənməsinə əsas verir. Demokratik təsisatlar, insan hüquqları, söz və mətbuat azadlığı geniş şəkildə inkişaf edib. Bu mənada Azərbaycan dövləti və cəmiyyətimiz müasir dünyanın ayrılmaz tərkib hissəsindən birinə çevrilib. Eləcə də insanların rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb, həyat səviyyəsi yüksəlib. Əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində davamlı addımlar atılır. Azərbaycanın bu gününü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə köklü dəyişikliklərin, davamlı inkişafın şahidi oluruq. Azərbaycanın bugünkü reallıqları dünya miqyasında təqdir olunur. Ölkəmizdə təhlükəsizlik tam təmin olunub. Hər bir vətəndaş ölkədə rahat, sabitlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycan çalxalanan, faciələrlə dolu mürəkkəb dünyada Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sabitlik adası kimi tanınır. İnsanlar gələcəyə böyük ümidlərlə baxırlar. Vətəndaşlar öz gələcəklərindən heç bir narahatlıq keçirmirlər”. Ötən hər günün arxada qalan günlərdən daha uğurlu olduğunu görür və yüksək dəyərləndirirlər. Bütün reallıqların içərisində olan xalq uğurlarımızla qürur duyur, hər bir sosial-iqtisadi göstəricini öz həyatında hiss edir. Gələcəyə inam hissinin böyüklüyü təbii ki, daha səylə çalışmağa, həyata keçirilən siyasətə dəstəyə böyük stimul verir.”

Ə.Əhmədov vurğuladı ki, Azərbaycanın diplomatik sahədə uğurları qürurvericidir: “Azərbaycan işğalçı Ermənistan istisna olmaqla bütün dövlətlər və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir. Qazanılan uğurlar yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, torpaqlarımızın işğaldan azad olunması, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmalarına etibarlı zəmin yaradır: “Azərbaycanın güclü ordusu, xalqın iradəsi, cənab Prezidentin qətiyyəti torpaqlarımızın işğaldan azad olunması üçün əminlik yaradır. Azərbaycan müharibə tərəfdarı deyil, sülh yolu ilə həllə üstünlük verir. Bunun üçün imkanlar tükənməyib və bundan axıra qədər istifadə etmək lazımdır.”

YAP Sədrinin müavini qeyd etdi ki, bütövlükdə 100 ildən çox müddətdə müstəqillik ideyaları əsasında Azərbaycanın bugünkü reallıqları yaranıb: “Bu reallıqlar Azərbaycanın hər bir vətəndaşının istək və arzularının ifadəsidir. Azərbaycan vətəndaşlarının arzuladığı cəmiyyət mövcuddur. Azərbaycan inkişaf edir, Heydər Əliyev ideyaları əsasında daha da möhkəmlənir, güclənir, Prezident İlham Əliyevin siyasəti daha böyük nailiyyətlərin qazanılmasına əsaslar yaradır. Beləliklə, Azərbaycan dövləti, müstəqillik ideyaları yaşayır və möhkəmlənir.”

Cümhuriyyət tarixinə həsr olunmuş “Son iclas” filminin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ərsəyə gəldiyini qeyd edən Ə.Əhmədov bildirdi ki, Respublika Günü ərəfəsində bu filmə tamaşa etmək, müstəqillik tariximizin ayrı-ayrı məqamlarını daha yaxşı dərk etmək, yaddaşımızın ən möhkəm guşəsində saxlamaq, bu ideyaları qəlbimizin daha isti yerlərində qoruyub saxlamaq nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir”.

Sonda “Son iclas” filmi nümayiş olundu.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***

# Trampın məktubunda: Azərbaycanla əməkdaşlığın perspektivinin üç prinsipi

Hazırda qlobal geosiyasi mənzərədə mürəkkəbliklər və qeyri-müəyyənliklər artır. Müxtəlif dövlətlər arasında münasibətlər gərginləşir, meydana yeni risk və ziddiyyətlər çıxır. Belə bir situasiyada dünyanın böyük dövlətlərinin müstəqilliyini əldə etmiş ölkələrlə münasibətləri hansı prinsiplər üzərində qurmaq istədikləri məsələsinin konkretləşdirilməsi əhəmiyyət daşıyır. ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevə ünvanladığı məktub həm də bu aspektdən maraq doğururdu. Təbii ki, bir təbrik məktubunda siyasi kursun incəlikləri əks olunmaz. Lakin hər təbrik məktubunda da konkret əməkdaşlıq təklifləri yer alır. ABŞ rəhbəri isə qısa məktubunda Azərbaycanla münasibətlərin çox vacib cəhətlərinə yığcam şəkildə toxunub. Onların qlobal və regional geosiyasi dinamika kontekstində analizinə ehtiyac var.



### Tarixi nailiyyətin etirafı: dövlətçilik ənənəsi və intellektual potensialı olan xalq

Qlobal səviyyədə dünya geosiyasi aspektdə çox qarışıqdır. Hər an istənilən ölkəyə qarşı riskli işlər ortaya çıxa bilər. Xüsusilə böyük güclər gözlənilməz addımlar ata bilərlər. Belə şəraitdə bulanıq suda balıq tutmaq istəyən qüvvələr başqalarının daxili işlərinə qarışmağa və ya iftiralar uydurmağa meyl edə bilirlər. Azərbaycana qarşı ona dost olmaq istəməyən dairələrin zaman-zaman qarayaxma kampaniyaları aparmaları buna nümunə ola bilər. Bir sıra hallarda isə Azərbaycanı təhrif olunmuş obrazda təqdim etməklə onun xarici siyasətinə kölgə salmağa, uğurlarını gizlətməyə və beynəlxalq əməkdaşlıq kanallarına zərər vurmağa çalışırlar. Son vaxtlarda da belə bir cəhdin şahidi olduq.

Lakin reallıq öz sözünü deyir. Bütün yalan və iftiralara baxmayaraq, dünyanın ən qüdrətli dövlətləri Azərbaycanla yaxın əməkdaşlıq etməyə hazır olduqlarını daim bəyan edirlər. Bu günlərdə Amerikanın Prezidenti Donald Trampın Azərbaycan Prezidentinə ünvanladığı məktub bu tezisi bir daha təsdiq edir.

Məktub Azərbaycanın milli bayramı - Respublika Günü münasibəti ilə yazılıb. Əksər hallarda bu növ məktublar ümumi sözlərdən ibarət olur. Orada konkret təklif və ya fikir nadir hallarda yer alır. D.Trampın məktubu isə konkret əməkdaşlıq tezisləridir. Lakonik və qısa şəkildə dünyanın ən güclü dövlətinin başçısı İlham Əliyevlə əlaqələrin istiqamətlərini ifadə edib. Öncə, təbii ki, Azərbaycan Prezidentini və Azərbaycan xalqını Respublika Günü münasibəti ilə təbrik edən D.Tramp 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi nailiyyət adlandırıb. O, sözlərinə davam edərək vurğulayıb: "Yüz ildən artıq bir vaxt keçdikdən sonra Amerika Birləşmiş Ştatları bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur".

Burada dövlətçilik baxımından əhəmiyyəti olan bir ideya ifadə olunub. ABŞ keçən əsrin əvvəllərində yaradılmış demokratik Azərbaycan dövlətini birbaşa xalqın iradəsinin, dövlətçilik ənənəsinin və intellektual potensialının nəticəsi hesab edir. Yəni o, bir sıra dairələrin təqdim etməyə çalışdığı kimi, kimlərinsə mərhəməti və ya hədiyyəsi yox, xalqın mübarizəsinin, yüksək iradəsinin tarixi təkamülünün nəticəsi idi.

Bu baxımdan psevdotarixçilərin gah erməni, gah da gürcüləri nümunə göstərməyə çalışması cəfəng bir hərəkətdir. Azərbaycan demokratiyasının, müstəqil dövlətçiliyinin kökü ölkənin öz tarixində, millətin kimliyində, onun daxili potensialının tarixən yeni zirvələr fəth etməsindədir. Donald Tramp bunları bir cümlədə ifadə etməyə çalışıb. Eyni zamanda, həmin hadisəni nailiyyət kimi qəbul edərək, onun qalmasında Amerikanın maraqlı olduğunu əks etdirib. Bu da həm birbaşa Azərbaycanın dövlətçilik tarixinə sayğını göstərir, həm də indiki mərhələdə Azərbaycanda aparılan siyasətin məhz müstəqil olduğuna dərin inamı ifadə edir.

Bu fikrin işığında məktubda həm Azərbaycanın regionda oynadığı geosiyasi rola verilən qiymət, həm də Bakı-Vaşinqton xəttində əməkdaşlığın perspektivləri barədə konkret istiqamətlərin ifadəsi olduqca böyük maraq kəsb edir. Açıq görünür ki, ABŞ Azərbaycanı Cənubi Qafqazın lideri kimi qiymətləndirir. Hesab edir ki, bunun tutarlı əsasları vardır. Həmin əsaslar üç prinsipdə əks olunur.

### Üç prinsipin işığında: əlaqələrin güclənəcəyinə Amerika ümidlidir

Birincisi, Azərbaycan regionda geosiyasi balans yaradan qüvvə kimi beynəlxalq təhlükəsizliyə, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təmininə öz töhfəsini verir. İkincisi, Azərbaycan əməkdaşlıq formatlarına konkret layihələrlə məzmun verir, onları zənginləşdirir. Üçüncüsü, Azərbaycan demokratik dövlət quruculuğunda davamlı islahatlar aparmaqdadır ki, onların sırasında qanunun aliliyinin təmini xüsusi yer tutur. Bu məqamların hər biri üzərində geniş dayanmaq zəruridir.

Birinci prinsip məktubda belə ifadə edilib: "Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri... dəyərləndirirəm... Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik".

Görünür ki, Vaşinqton Azərbaycanın bütün böyük dövlətlərlə balanslı əməkdaşlıq yaratmasına tam əmindir. Bu səbəbdən də Amerika ilə güclü tərəfdaşlığın mövcudluğu təbii və proqnozlaşdırılan faktor kimi qəbul edilir. Onun "ortaq maraqlar üzərində qurulması" prosesin davamlılığına, sistemliliyinə və konkret kriteriyalara əsasən qurulduğuna işarədir. Ən əsası isə odur ki, D.Tramp bu əməkdaşlığın perspektivinə tam inanır.

Fikrini daha da konkretləşdirərək, ABŞ Prezidenti nümunələr göstərir. Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə verən layihələr reallaşdırır, əməkdaşlıq formatları təklif edir. Cənubi Qafqazda ikinci belə bir dövlət hələ yoxdur. Bu səbəbdən D.Tramp müqayisə aparmağa ehtiyac görmür. Əvəzində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu ədalətli, müdrik və beynəlxalq hüquq normalarına tam uyğun olan mövqeyinə görə, Azərbaycan Prezidentindən razılığını bildirir.

Bununla D.Tramp Azərbaycanın xarici siyasətinin çox mühüm bir məqamına işarə verir. Məsələ ondan ibarətdir ki, Azərbaycan rəhbərliyi balanslaşma siyasətini ancaq milli maraqlar üzərində qurur. Bu mövqedən baxdıqda, ölkənin xarici dövlətlərlə əməkdaşlığı ilə Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe tutmaq arasında sıx bağlılıq görünür. Xarici siyasətin bu iki komponenti bir-birini tamamlayır. Sevindiricidir ki, Amerika rəhbərliyi İlham Əliyevin siyasi kursunun bu aspektinə xüsusi önəm verir. Dolayısı ilə Ermənistan rəhbərlərinin təxribatçı informasiya fəaliyyətinin nəticəsiz qaldığı aydın olur.

İkinci məqam aşağıdakı cümlədə lakonik ifadə edilib: "...Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm". ABŞ dövlət başçısı etiraf edir ki, Azərbaycan Prezidenti enerji sahəsində əməkdaşlıq prosesində liderlik edir, aparıcı rol oynayır. Cənub Qaz Dəhlizi layihəsi beynəlxalq əməkdaşlıq formatı kimi bu kontekstdə çox əhəmiyyətlidir.

Bununla yanaşı, Azərbaycan Prezidenti layihələrin də təşəbbüskarı kimi, Qərbin enerji təhlükəsizliyinin gücləndirilməsində ciddi rol oynayır. Bununla Vaşinqton Azərbaycan regional əməkdaşlığın memarı olaraq qəbul etdiyini ifadə edir. Bu keyfiyyətdə Azərbaycan qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verməkdədir.

Nəhayət, üçüncü məqam aşağıdakı kimi ifadə edilib: "Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq". Amerika rəhbərliyi Azərbaycanda islahatların genişləndiyini və davamlılığını qəbul edərək, qanunun aliliyinin təmin edilməsi aspektinə xüsusi önəm verdiyini vurğulayıb. Bütövlükdə isə ölkə rəhbərliyinin ardıcıl olaraq həyata keçirdiyi islahatların düzgünlüyünə əminlik ifadə edir. Çünki onlar həm Azərbaycan xalqının mənafeyinə xidmət edir, həm də beynəlxalq əməkdaşlıq üçün geniş perspektivlər açır. Bu məqam iki ölkə arasındakı əlaqələrin möhkəmlənməsinin aparıcı faktoru olaraq qəbul edilir.

Bütün bunların əsasında D.Tramp belə bir arzusunu ifadə edir: "Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram". Deməli, Vaşinqton dəqiq informasiyalara əsaslanaraq, analiz və proqnozlar əsasında belə qənaətə gəlib ki, Azərbaycanla əməkdaşlıq mütləq inkişaf etdirilməlidir. Şübhəsiz, bu, Azərbaycan rəhbərliyinin böyük siyasi uğurudur. Və həmin istiqamətdə yeni-yeni nailiyyətlərin olacağına sarsılmaz inam mövcuddur! Çünki ölkə əmin əllərdədir!

**Newtimes.az**

## interpress.uz-da Bakıda keçiriləcək final oyunu ilə bağlı məqalə yerləşdirilib




Özbəkistanın interpress.uz portalında UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final qarşılaşması ilə bağlı özbək dilində məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, yazıda möhtəşəm final görüşündə Londonun "Arsenal" və "Çelsi" klublarının üz-üzə gələcəyi xatırlanıb. İngiltərənin "Arsenal" klubunun yarımmüdafiəçisi, erməni əsilli Henrix Mxitaryanın Bakıda təhlükəsizliyinin təmin olunmasına dair Azərbaycan Respublikasının yüksək səviyyədə təminat verməsinə baxmayaraq, futbolçunun oyunda iştirak etməməsi, Ermənistanın və bəzi qüvvələrin bu hadisəni siyasiləşdirmək cəhdləri barədə məlumat verilib.

Bildirilib ki, Azərbaycanda dəfələrlə mötəbər beynəlxalq yarışlar yüksək səviyyədə keçirilib və Ermənistan idmançıları həmin turnirlərdə iştirak ediblər.

Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı bəyanat verdiyi də diqqətə çatdırılıb.

## Müstəqilliyimiz ən böyük sərvətimizdir

Lerik rayon Heydər Əliyev Mərkəzində YAP Lerik rayon təşkilatının Gənclər Birliyinin rayon gənclər və idman idarəsinin birgə təşkil etdikləri Azərbaycanın milli bayramı- Respublika Gününə həsr olunmuş tədbir belə adlanırdı.

Dövlət himninin sədaları altında başlanan tədbirdə ilk söz rayon Gənclər və idman idarəsinin rəisi Natiq İsaqov bildirdi ki, 1918-ci il mayın 28-də xalqımızın görkəmli oğullarının tərəfindən qurulan Cümhuriyyət Azərbaycanın tarixində ən şərəfli səhifələrdən birini tutur. 23 il yaşasa da, xalqımızın mənlik şüurunu ona qaytarmaqla, həm də müstəqil dövlətimizin varisi oldu. 1991-ci ildə xalqımız ikinci dəfə müstəqilliyini qazananda ağır böhranlı vəziyyətə düşdü və onun yaşaması təhlükə qarşısında qaldı. Nə xoş ki, ulu öndər Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyini və müstəqilliyini xilas etdi.

YAP Lerik rayon təşkilatının aparat rəhbəri Elxan Qəmbərov, YAP Lerik rayon təşkilatının Gənclər Birliyinin sədri Nüsrət Kərimov, Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov, fəal gənc Cahani Nüsrətdzadə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin əməkdaşı Pərviz Ağaxanlı müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin əhəmiyyətindən ətraflı danışmaqla, bir də yenidən müstəqilik qazanan indiki çiçəklənən Azərbaycana görə bizim hamımızın ümummilli lider Heydər Əliyevə borclu olduğunu söylədilər. O da vurğulandı ki, Ulu Öndər tərəfindən müstəqil Azərbaycanın inkişafına yönəlmiş düzgün siyasəti hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir.

Sonda bədii qiraətçilər tərəfindən Cümhuriyyətin təntənəsini özündə yaşadan Cəfər Cabbarlının, Əhməd Cavadin, Eldar Baxışın istiqlal şeirlərdən nümunələr səsləndi.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Ermənistan atəşkəsi 23 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Bakı Ali Neft Məktəbinin məzunları iş tapmaqda liderdir




**Tanınmış dünya universitetlərinin təcrübəsinə əsaslanaraq tədris proqramında ən son texnoloji nailiyyətləri tətbiq edən Bakı Ali Neft Məktəbi (BANM) keçən il ikinci buraxılış məzunlarını yola saldı. 2018-ci ildə ali məktəbdən "Neft-qaz mühəndisliyi" ixtisası üzrə 35 nəfər, "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisası üzrə 16 nəfər və "Kimya mühəndisliyi" ixtisası üzrə 41 nəfər olmaqla cəmi 92 nəfər məzun oldu.**

Dünyada tətbiq olunan beynəlxalq standartların tələbləri səviyyəsində tədris prosesini həyata keçirən ali məktəbin məzunları enerji sektorunda fəaliyyət göstərən şirkətlərə işə düzəlməkdə çətinlik çəkmirlər. BANM-də təhsil alan tələbələr hər il tədris proqramlarının bir hissəsi kimi həmin şirkətlərin əksəriyyətində istehsalat təcrübə proqramları keçirlər ki, bu da məzun olmalarına qədər həm şirkətlərin onları, həm də tələbələrin şirkətləri yaxından tanımasına real imkan yaradır.

Bundan başqa, enerji sektorunun nüfuzlu şirkətləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri quran BANM-də həmin şirkətlərin rəhbər şəxsləri, menecerləri tədris müddəti ərzində mütəmadi olaraq tələbələrə master-klasslar, təlim və seminarlar keçir. Bu da tələbələrin həmin şirkətlərin fəaliyyətinə maraq göstərməsinə, gələcəkdə özlərini həmin şirkətlərin əməkdaşı kimi görməsinə imkan yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" siyasətini əldə rəhbər tutaraq fəaliyyət göstərən ali məktəbin məzunlarının əksəriyyəti artıq aparıcı şirkət və müəssisələrdə işləməyə başlayıb. Məzunlar arasında ixtisasları üzrə işləyən, eyni zamanda, təhsilini davam etdirənlər var.

Məzunların məşğuliyyəti haqqında geniş məlumatı özündə əks etdirən "Məzunlarımız haradadır?" adlı jurnalın nəşri ali məktəbdə ənənə halına çevrilib. BANM-in eyni adlı jurnalının 2018-ci il məzunlarına həsr olunmuş 2-ci buraxılışı ictimaiyyətə təqdim olunub.

Mühəndislik ixtisaslarına dair beynəlxalq səviyyədə qəbul edilən BANM-in məzunlarının çalışdığı müəssisələr üzrə statistika aşağıdakı kimidir:

| Şirkət/Təşkilat | Ümumi say |
|---|---|
| SOCAR | 28 |
| BAKI ALİ NEFT MƏKTƏBİ | 6 |
| BP | 6 |
| PETKİM (TÜRKİYƏ) | 4 |
| SCHLUMBERGER | 3 |
| MAİRE TECNİMONT | 3 |
| GİLAN HOLDİNG | 3 |
| SAİPEM | 3 |
| BAKER&HUGES a GE Company | 2 |
| PAŞA BANK | 2 |
| SOCAR POLYMER | 2 |
| SOCAR KBR | 2 |
| "ÜMİD BABƏK" Əməliyyat Şirkəti | 1 |
| SOCAR DALĞIC | 1 |
| SOCAR AQS | 1 |
| EMERSON | 1 |
| SOCAR FOSTER WHEELER | 1 |
| WorleyParsons | 1 |
| USE Study Group | 1 |
| CƏMİ | 71 nəfər |

Təhsilini davam etdirməyi qərara almış məzunlar öz təhsillərini Azərbaycanın, eləcə də dünyanın nüfuzlu universitetlərində magistratura pilləsində davam etdirir. Onların ali məktəblər və ölkələr üzrə statistikasını aşağıdakı cədvəldə təqdim edirik:

| Universitet | Ölkə | Say |
|---|---|---|
| Bakı Ali Neft Məktəbi | Azərbaycan | 15 nəfər |
| Budapeşt Texnologiya və İqtisadiyyat Universiteti | Macarıstan | 4 nəfər |
| Luiziana Universiteti | ABŞ | 2 nəfər |
| Norveç Elm və Texnologiya Universiteti | Norveç | 2 nəfər |
| Milan Politexnik Universiteti | İtaliya | 2 nəfər |
| Pusan Dövlət Universiteti | Cənubi Koreya | 1 nəfər |
| Münxen Texniki Universiteti | Almaniya | 1 nəfər |
| Otto von Guericke Magdeburg Universiteti | Almaniya | 1 nəfər |
| Dortmund Texniki Universiteti | Almaniya | 1 nəfər |
| Ondokuz Mayıs Universiteti | Türkiyə | 1 nəfər |
| CƏMİ | | 30 nəfər |

Qeyd edək ki, Bakı Ali Neft Məktəbinin əsas məqsədi neft-qaz, kimya və proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mühəndislik, texnologiya və dizayn kimi sahələrdə peşəkar ingilis dili bilikləri və bacarıqları olan yeni nəsil mühəndis kadrları hazırlamaqdır.

# Səninlə fəxr edirik, Azərbaycan əsgəri!

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə respublikamızın qərb bölgəsində "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına start verilib.**



UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovun rəhbərliyi ilə professor-müəllim və tələbələrdən ibarət ilk aksiya qrupu hərbi libas geyinərək iki gün cəbhəboyu bölgədə, ön xətt mövqelərində olaraq



qarşılarına qoyduqları xeyirxah və nəcib vətənpərvərlik missiyasını layiqincə yerinə yetiriblər.

Aksiya iştirakçıları birliyin komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıb. Əvvəlcə hərbi orkestrin ifa etdiyi milli marşların müşayiəti ilə xalqımızın ümummilli lideri, Silahlı Qüvvələrin əbədiyaşar Ali Baş Komandanı Heydər Əliyevin qərargahın qarşısında gül-çiçəyə qərq olmuş bağçadakı büstü ziyarət olunub, qarşısına qızılgüllər düzülüb.

Aksiya iştirakçıları hərbi hissədə Heydər Əliyev mərkəzi, eləcə də hərbi qulluqçular üçün yaradılmış yüksək xidmət, məişət şəraiti ilə, hərbi qulluqçuların problem və qayğıları ilə maraqlanıb, nizam-intizamın, şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasının bir daha şahidi olublar.

Əsgər klubunda Azərbaycan Ordusuna dəstək aksiyasının açılışına həsr olunmuş mərasimdə qrupu müşayiət edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində son illərdə qazanılmış uğur və nailiyyətlərdən geniş söhbət açıb, ulu öndər Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ordumuzun bütün xalqın övladı olduğunu və onun inkişafına müntəzəm qayğı və diqqət göstərməyin hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcu olduğunu vurğulayıb. Qeyd edilib ki, UNEC-in bu təşəbbüsü təqdirəlayiqdir və bütün ali məktəblərin, idarə və təşkilatların kollektivləri də bu aksiyaya qoşulmalıdırlar. Müharibə şəraitində yaşayan bir məmləkətin hər bir vətəndaşından barıt qoxusu gəlməli, bütün cəmiyyət vətənpərvərlik hissi ilə yaşamalı, "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!" şüarı ölkəni əhatə etməlidir.

General-mayor Xəqani Cəbrayılov qonaqları şəxsi heyət adından salamlayaraq bu aksiyanın hər bir döyüşçünün, həmçinin aksiya iştirakçılarının həyatında müsbət iz buraxacağını, işğal altında olan torpaqların tezliklə azad ediləcəyinə inamını və qələbə əzmini, döyüş ruhunu daha da artıracağına əminliyini bildirib. Ulu Öndərin müdrik kəlama çevrilmiş fikirlərini tədbir iştirakçılarına çatdıran general deyib ki, həqiqətən Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır. Ona görə də, biz bunu heç vaxt unutmur və orduya olan qayğını daim əsas vəzifələrimiz kimi dərk edirik. UNEC-in bu təşəbbüsü, Ordumuza mənəvi dəstək verməsi hər bir Vətən müdafiəçisini daha böyük zirvələr fəth etməyə ruhlandırır.

Rektor professor Ədalət Muradov UNEC-in iyirmi min nəfərlik böyük kollektivi adından şəxsi heyəti 28 May Respublika Günü və qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən salamlayıb, hər bir döyüşçüyə bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etməyi, hərb tariximizə aprel və günnüt zəfərlərinin davamı olacaq yeni-yeni şanlı səhifələr yazmağı arzulayıb.

Professor torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda UNEC-in kollektivinin də müsəlləh əsgər kimi hər bir əmrə müntəzir olduğunu diqqətə çatdırıb.

Həzi Aslanov adına Azərbaycan Ordusu və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzlərinin yaradıcı qruplarının, UNEC-in bədii özfəaliyyət kollektivinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (vaxtilə bu ali məktəb Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu adlanırdı) 1973-cü il məzunu, Əməkdar artist Nizami Abdullayevin iştirakı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" adlı konsert proqramı təqdim edilib. "Biz gəlirik, Qarabağ" ədəbi-bədii kompozisiyası ilə Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının açılışına həsr olunmuş mərasim başa çatıb.

Həmin axşam aksiya iştirakçıları şəxsi heyətlə birlikdə şam yeməyində iştirak edib, rəmzi döyüş növbəsində dayanıb, əsgər yataqxanasında gecələyiblər.

Aksiyanın ikinci günü cəbhəyanı bölgədə, hərbi hissələrin dayaq məntəqələrində, ön xətt mövqelərində silsilə tədbirlər keçirilib. Döyüşçülərə UNEC-in professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti dərc olunmuş kitabçalar təqdim olunub. Rektor Ədalət Muradov, Fizika və kimya kafedrasının müdiri, professor Rövnəq Rzayev, UNEC Beynəlxalq İqtisadiyyat məktəbinin direktoru Aqil Əzizov, Ekspertiza və standartlaşdırma fakültəsinin dekan müavini, dosent Elçin Səmədov, İqtisadi araşdırmalar elmi-tədqiqat institutunun böyük elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru Fərhad Mikayılov, rektorun köməkçisi, ehtiyatda olan baş leytenant, iki zabit qardaşı olan Şamil Əliyev, təhsildə və ictimai işlərdə fəallıq göstərən tələbələr əsgərlər qarşısında çıxış edib, səmimi söhbət aparıb, onları maraqlandıran sualları cavablandırıblar.

Hərbi xidmətdə fərqlənən əsgər və zabitlərə UNEC-in təsis etdiyi xüsusi mükafatlar, hədiyyələr təqdim olunub.

Sonra xüsusi təyinatlılar öz məharətlərini nümayiş etdirərək, aksiya iştirakçılarını təəccübləndiriblər.

Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının ilk qrupunun rəhbəri, professor Ədalət Muradov cəbhəboyu bölgədən ayrılarkən döyüşçülər qarşısında çıxışını Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi fikirlərlə tamamlayıb: "Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır... Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir... Döyüş qabiliyyəti ən yüksək səviyyədədir... Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib".

UNEC-in təşəbbüsü ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası 26 iyun - Silahlı Qüvvələr Gününədək birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də universitetdə davam etdiriləcək.

✍ **Zamin Məmmədov,**
***"İki sahil"***

# YAP Qobustan rayon təşkilatının Şura iclası keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Qobustan rayon təşkilatının Şura iclası keçirilib. İclasda YAP Qobustan rayon təşkilatının Şura, İdarə Heyətinin üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri və Gənclər Birliyinin Şura üzvləri iştirak ediblər.







YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev Yeni Azərbaycan Partiyasının Ümumrespublika müşavirəsindən irəli gələn vəzifə və tapşırıqlardan danışaraq bildirib ki, ötən müddət ölkəmiz üçün uğurlu inkişaf dövrü olub.

F.Gülaliyev bildirib ki, bütün bunlara rəğmən, ölkəmizin bütün sahələrdə qazandığı uğurlar anti-Azərbaycan qüvvələrin marağında olmadığından onlar tərəfindən vaxtaşırı dövlətimizə qarşı qarayaxma kampaniyası aparılır: “Bu proses bu gün də davam edir. Məsələnin kökündə isə beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi fikir yaratmaq, qazanılan uğurlara kölgə salmaq dayanır. YAP üzvü olaraq əsas məqsədlərimizdən biri də onların belə əməllərini ifşa etməkdir. Bu missiyanı yerinə yetirmək üçün partiyamızın hər bir üzvü insanlar arasında daha fəal olmalı, ciddi iş aparmalıdır”.

Şura üzvlərindən Aynur Axundova, Zaur Cəfərov, Elman Mikayılov, YAP fəallarından Aftandil Şikarov, Emin Hüseyn və başqaları çıxış edərək qeyd ediblər ki, Azərbaycanın inkişaf tempi dünya ölkələrinə məlumdur və bu proses Prezident İlham Əliyevin rəhbərliyi ilə davam edir. Bildirilib ki, Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti xalqın mənafeyinə cavab verir.

Şura iclasında Qobustan Rayon İcra Hakimiyyətinin başçısı, rayon təşkilatının İdarə Heyətinin üzvü Adil Məmmədov bildirib ki, bu gün Azərbaycan ən sabit, yaşayış üçün ən təhlükəsiz ölkələrdən biridir: “Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə təhlükəsizliyin təmin edilməsi, sabitliyin, əmin-amanlığın qorunması məhz bu mənada daha mühüm əhəmiyyət kəsb edir. Çünki bu, insanların yaşaması üçün ən vacib şərtlərindən biridir. Yaxşı yaşamaq üçün təhlükəsizlik təmin edilməlidir”.

Sonda ərazi ilk partiya təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi, onların səmərəli fəaliyyət göstərməsi üçün müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib, YAP fəallarına sosial şəbəkələrdə fəallıqlarını artırmaları tövsiyə olunub.

**Ceyhun Piriyev,**
***“İki sahil”***

# Firdovsiyyə Əhmədova: Müasir dövlətimiz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir

**1918-ci il mayın 28-də müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti dilindən, dinindən, cinsindən, etnik və sosial mənşəyindən asılı olmayaraq, ölkə ərazisində yaşayan bütün insanlara bərabər hüquq verdi. 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik dövlət, ilk parlamentli respublika oldu.**



Tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova İkisahil.TV-yə açıqlamasında bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti çağdaş tariximizə 350 dəfə “ilk dəfə” ifadəsini yazmışdı. Bu sıraya Azərbaycan dilinin dövlət dili elan edilməsi, ordu quruculuğu, atributlar, Parlamentin açılması, Şərqdə gender məsələsinin demokratik həlli, vətəndaşlıq hüququ, Milli Universitetin açılması və s. daxil idi.

F.Əhmədova qeyd etdi ki, Şərqə demokratiyanın ilk işığını gətirən bu dövlət de-fakto və de-yure olaraq iri dövlətlər tərəfindən tanınması ilə nəticələnmiş, beynəlxalq hüququn subyektinə çevrilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə söykənərək, ölkədə dini-etnik tənzimləmə siyasəti aparmış, vicdan azadlığının qorunmasına xüsusi önəm vermiş, azsaylı xalqların nümayəndələrinin 1918-ci il dekabrın 7-də açılan Parlamentdə yer almalarına şərait yaratmışdı. Tarixən müxtəlif mədəni təbəqələrə malik olan ölkədə dövlət-vətəndaş münasibətlərinin sivil modelini yaratmışdı. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, bir çox Avropa ölkələrindən daha əvvəl qadınların seçki hüququnun tanınması Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin mahiyyətinin əyani göstəricisidir. Cümhuriyyətin bütün müsəlman Şərqində ilk dəfə məhz Azərbaycan xalqı tərəfindən yaradılması artıq dünyamiqyaslı hadisə sayıla bilər. Bu tarixi hadisənin hər il ümumxalq bayramı səviyyəsində keçirilməsinin tarixi əhəmiyyəti şəksizdir. Azərbaycan Xalq Cümhuriyyəti sadəcə, deklarativ məzmunda bəyan edilmiş dövlət olmamışdır. “İstiqlal Bəyannaməsi”ndə əksini tapmış prinsiplərə, dəyərlərə bütün fəaliyyəti boyu əməl etməyə, sadiq qalmağa səy göstərmişdir. Bütün dövlətçilik atributlarına malik, parlamenti, hökuməti, ordusu olan suveren bir dövlətə çevrilə bilmişdi. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsi ilə sona çatdı. Milli dövlət süqut etsə də, milli dövlətçilik duyğuları qəlblərdən silinmədi. Milli yaddaş məhv olmadı. Bu möhtəşəm tarixlə bağlı tarixi və siyasi şərhçilərin də vurğuladıqları kimi, əgər 1918-ci ildə Xalq Cümhuriyyəti qurulmasaydı, sonrakı mərhələdə SSRİ təşkil olunarkən Azərbaycan, bəlkə də bu İttifaqın tərkibinə müttəfiq respublikalardan biri kimi yox, muxtar vilayət kimi daxil olardı. Eyni zamanda, tarixdə Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı, SSRİ-nin dağılmasından sonra ölkəmiz Rusiya Federasiyasının subyekti kimi hüquqi status qazana bilərdi.

Firdovsiyyə Əhmədova xüsusi olaraq vurğuladı ki, XX yüzilin sonlarında Azərbaycan dövləti yenidən istiqlala qovuşdu, Cümhuriyyət ənənələrinə sadiqliyini bəyan etdi. Azərbaycan bu gün dünyanın siyasi və iqtisadi dairələrində diqqət mərkəzinə çevrilmişdir. 28 ildir müstəqil olan Azərbaycan 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin layiqli varisidir. Ulu öndər Heydər Əliyev bugünkü Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin varisi hesab edərək demişdir: “Bu dövlət, bu quruluş 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün xalq onun varisidir.”

**Şəmsiyyə Əliqızı,**
***“İki sahil”***

# “Azneft”in İdarəsinə yeni rəis təyin olunub

“Azneft” İstehsalat Birliyinin Nəriman Nərimanov adına neft-qaz çıxarma idarəsinə (NQÇİ) yeni rəis təyin edilib.

“Report” bu barədə İstehsalat Birliyinə istinadən xəbər verir.

Bildirilib ki, bu vəzifəyə Birliyin Neftin, qazın hasilatı və nəqli üzrə istehsalat şöbəsinin rəisi Pərviz Əhmədov təyin olunub.

Məlumata görə, P.Əhmədov NQÇİ-nin kollektivinə təqdim olunub.



# YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin VI hesabat-seçki konfransı





Mayın 25-də Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatı Gənclər Birliyinin VI hesabat-seçki konfransı keçirilib.

YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov açaraq ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə gənclərə göstərilən qayğıdan danışıb. Qeyd edib ki, Azərbaycan gənci dünyanın ən xoşbəxt gəncidir. Çünki bu gün Azərbaycanın yüksək savadlı və intellektli gəncləri Avropanın, ABŞ-ın ən mötəbər universitetlərində ali təhsil almaqla, müstəqil dövlətimizi, onun gəncliyini ləyaqətlə təmsil edirlər.

R.Tatarov vurğulayıb ki, saf amallar və prinsiplər üzərində qurulan YAP möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə üzərinə götürdüyü tarixi missiyanı uğurla yerinə yetirir. Müasir dövrün tələblərinə uyğun olaraq formalaşan Azərbaycan gəncləri əməli işləri ilə ölkəmizin inkişafına töhfələr verirlər. Bu gün Azərbaycan gənclərinə göstərilən dövlət qayğısı gələcək uğurlara yol açan ən sağlam siyasətdir. Bunun nəticəsində gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirirlər.

Konfransda YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin İmaməliyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, son illərdə gənclərin rayon təşkilatında kəmiyyət və keyfiyyət artımı baş verib ki, bu da onların həm partiya quruculuğunda, həm də ölkənin ictimai- siyasi həyatında fəallığının göstəricisidir.

Hesabatdan sonra təşkilati məsələlərə baxılıb. Konfrans nümayəndələri Gənclər Birliyinin 13 nəfərdən ibarət Şura və 9 nəfərdən ibarət İdarə Heyətini seçib.

Sonra gizli səsvermə yolu ilə Elvin İmaməliyev YAP Ağstafa rayon təşkilatının Gənclər Birliyinin sədri seçilib.

**Elçin Zaman, *“İki sahil”***

# İnsan hüquqlarından xəbərsiz “Amnesty İnternational”...

Mövcud beynəlxalq təşkilatların və QHT-lərin əksəriyyətinin əhəmiyyətinin azalması tendensiyasını müşahidə edirik. Beynəlxalq təşkilatlar və QHT-lərin müasir beynəlxalq münasibətlərdəki yeri və rolu 10-15 il öncəki kimi deyil və son illər ərzində onların məsələlərə qərəzli yanaşmaları, beynəlxalq münasibətlərdəki missiyaları açıq suallar doğurur.

Fəaliyyəti açıq suallar doğuran təşkilatlardan biri də son illər bir sıra ölkələrdə müxtəlif qalmaqallara səbəb olan beynəlxalq qeyri-hökumət təşkilatı “Amnesty international”dır.

Mövcud olduğu ölkədə hüquqi məsuliyyəti və öhdəliyi olmayan bu beynəlxalq QHT-nin son illərdə müxtəlif iqtisadi və siyasi lobbi qrupları üçün poliqon rolunu oynaması, demokratiya, insan haqları və şəffaflıq kimi mövzulardakı hesabatlarının dövlətlər üzərində təsir vasitəsi kimi istifadə olunması, bir sıra hallarda isə müxəlif dövlətlərin öz maraqlarını beynəlxalq müstəvidə daha rahat təmin etməsi üçün təəssüratı göz önündədir.



Xüsusilə bu tip təşkilatlardan enerji, iqtisadi və təhlükəsizlik sahələrində strateji coğrafi mövqelərə, mədən sənayesinə malik dövlətlərə, separatizm və işğaldan əziyyət çəkən ölkələrə qarşı rəqib cəbhədən geniş istifadə olunmaqdadır.

Son illərdəki hesabatlarının oyektlivliyi şübhə doğuran “Amnesty İnternational” müxtəlif informasiyaların geniş ictimaiyyətə çatdırılması adı altında bu və ya digər regionlarda cəmiyyətlərin səfərbər edilməsinə hesablanmış metodlar və alətlərlə kənar maraqların təmin olunması istiqamətində yerli hökumətlərə qarşı daxildən ictimai fikrin səfərbər olunması kampaniyaları aparır.

**Yeganə Hacıyeva,**
*Beynəlxalq hüquq və münasibətlər üzrə ekspert*

# Vətənpərvər gənclər yetişdirmək qüdrətli ölkə qurmaq deməkdir

**Mayın 25-də YAP İmişli rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans Dövlət himnimizin səslənməsi və Ulu Öndərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra öz işinə başlayıb.**

Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, YAP Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda xalqın istək və arzularının nəticəsi olaraq tarixi zərurətdən yaranıb. Yarandığı ilk gündən ölkəmizin siyasi səhnəsində uğurla fəaliyyət göstərərək, milli müstəqilliyimizin qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, iqtisadiyyatımızın inkişaf etdirilməsinə özünün layiqli töhfələrini verib. Bu gün də partiyamız cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə öz prinsiplərinə sadiqliyini nümayiş etdirir. Azərbaycan gəncliyi ictimai-siyasi və sosial-iqtisadi sahələrdə aktiv fəaliyyət göstərir. Müasir Azərbaycan gəncləri müstəqil dövlətin gəncləri olaraq özlərini cəmiyyətin fəal təbəqəsi kimi təsdiqləyiblər. Ulu öndər Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin xarakterik keyfiyyətlərindəndir.



YAP İmişli rayon təşkilatının Gənclər Birliyinin sədri Ziya Paşayev hesabat məruzəsi ilə çıxış edib. Sonra konfransda təşkilati məsələlərə baxılıb. YAP İmişli rayon təşkilatı Gənclər Birliyinin 21 nəfərdən ibarət Şurası, 11 nəfərdən ibarət İdarə Heyəti, sədr və sədr müavinləri seçilib. Səsvermə nəticəsində Rüfət Muradov Gənclər Birliyinin sədri seçilib.

Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, saf amallar və prinsiplər üzərində qurulan YAP möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə üzərinə götürdüyü tarixi missiyanı uğurla yerinə yetirir. Müasir dövrün tələblərinə uyğun olaraq formalaşan Azərbaycan gəncləri əməli işləri ilə ölkəmizin inkişafına töhfələr verirlər. Bu gün Azərbaycan gənclərinə göstərilən dövlət qayğısı gələcək uğurlara yol açan ən sağlam siyasətdir. Bunun nəticəsində gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirirlər.

Bakı Mühəndislər Universitetinin rektoru, professor Havar Məmmədov ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti, gənclərin inkişafı ilə bağlı reallaşdırılan Dövlət proqramları barədə danışıb.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev gənclərə tövsiyələrini verdi. Eyni zamanda, Prezident İlham Əliyevin Azərbacanı sürətlə inkişaf etdirmə yolunda nəhəng siyasi fəaliyyətindən danışıb: "Cənab İlham Əliyev yeni əsrin və postsovet məkanında tamamilə yeni tipli siyasi liderin nümunəsinə çevrilib. O, siyasi lider kimi yeni dövrün tanınmış şəxsiyyətidir. Cənab Prezidentin qazandığı uğurlar xalqımıza böyük ümidlər verir, gələcək inkişaflara geniş yollar açır. Şübhəsiz, öz müstəqil siyasi kursunu həyata keçirən, dinamik inkişaf edən, regionun lider ölkəsi olan və dünya miqyasında söz sahibinə çevrilmiş Azərbaycan Respublikası xalqımızın tarixi nailiyyəti, ən böyük sərvəti, həqiqətən də fəxr mənbəyimizdir. Hesab edirəm ki, məhz buna görə də Azərbaycan xalqı möhtərəm Prezidentimizin bütün təşəbbüslərini yekdilliklə dəstəkləyir".

Sonra konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə müraciət qəbul edilib. Konfransda YAP-a yeni üzv qəbul olunmuş gənclərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

✍ **Elçin Zaman,**
***"İki sahil"***

## Şərqdə ilk parlamentli respublika



AMEA Naxçıvan Bölməsində "Azərbaycan Xalq Cümhuriyyəti: Şərqdə ilk parlamentli respublika" mövzusunda elmi konfrans keçirilib.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan xalqının gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə yaratdığı Azərbaycan Xalq Cümhuriyyətinin çoxəsrlik dövlətçilik tariximizdəki yeri və rolundan danışıb. Qeyd olunub ki, 1918-ci ilin may ayının 28-də öz müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq qısa fəaliyyəti dövründə bir çox çətinliklərə baxmayaraq tarixdə mühüm işlər həyata keçirib. Böyük çətinliklərlə, problemlərlə, müqavimətlərlə, manelərlə rastlaşan Azərbaycan Xalq Cümhuriyyəti xarici qüvvələrin təsirilə müvvəqəti olaraq süquta uğrasada lakin XX əsrdə Azərbaycan xalqı ikinci dəfə öz müstəqilliyini elan etdi.

İsmayıl Hacıyev ümummilli lider Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" və "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" sərəncamlarının önəmindən bəhs edib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyev hər zaman xalqımızın dövlətçilik tarixində parlaq rol oynayan Azərbaycan Xalq Cümhuriyyətinin, Cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət verib.

Akademik Ulu Öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi və "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi" ilə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən də bəhs edib. Vurğulayıb ki, milli-tarixi yaddaşımızın bərpa edilməsi istiqamətində Azərbaycanı dünyada müstəqil, demokratik, hüquqi dövlət kimi tanıdan və müstəqilliyimizi əbədiləşdirən dahi lider Heydər Əliyev tərəfindən əsası qoyulan, hal-hazırda da ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə həm daxili, həm də xarici siyasətdə uğur qazanıb.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət", tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev "Müstəqil Azərbaycan dövləti Xalq Cümhuriyyətinin varisidir", tarix üzrə fəlsəfə doktoru Asəf Orucov "Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət quruculuğu sahəsində fəaliyyəti", institutun kiçik elmi işçiləri Səbuhi Həsənov "Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin fəaliyyəti" və Nilufər Ağayeva "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" mövzusunda məruzələrlə çıxış ediblər.

# Şanlı tariximizin qürur səhifəsi



1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında önəmli hadisə baş verdi. Müsəlman Şərqində ilk parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti (AXC) quruldu və mövcud olduğu qısa zaman kəsiyində bu demokratik respublika milli dövlətçilik tariximizdə silinməz izlər qoydu. Dövlət bayrağının qəbul edilməsi, milli ordunun yaradılması, Bakı Dövlət Universitetinin təsis olunması, ana dilimizin dövlət dili səviyyəsinə qaldırılması, milli pul vahidi olan manatın dövriyyəyə buraxılması, Parlament tərəfindən 200-dən çox qanunun hazırlanması Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük keyfiyyətlərindən idi. Eyni zamanda, AXC Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verən dövlət kimi adını tarixə yazdırdı. Bir sözlə, o zaman olduqca mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə demokratik inkişaf yolu tutdu. Üstəlik, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirdi. Uzun illərdən bəri müstəmləkə üsul-idarəsi tərəfindən unutdurulmuş dövlətçilik ənənələrini bərpa etdi və gücləndirdi.

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda təşəkkül tapması xalqımızın o dövrdə milli müstəqillik, azadlıq duyğuları ilə bağlı idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra Rusiya bolşevizminin işğalı nəticəsində süquta uğradı.

XX əsrin sonlarında Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan yenidən müstəqilliyə qovuşdu. Amma AXC-Müsavat cütlüyünün bacarıqsızlığı ucbatından müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qaldığı dövrdə ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra isə vəziyyət dəyişdi. Ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas oldu. Ümummilli Lider Azərbaycanı o ağır vəziyyətdən çıxardı və ölkəmizi yeni inkişaf yoluna qoydu. Bu mənada 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır.

Yeri gəlmişkən, qeyd edək ki, Ulu Öndər AXC-nin fəaliyyətini dövlətçilik salnaməmizin parlaq səhifələrindən biri kimi xarakterizə edib. Ümummilli lider, həmçinin bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti həm milli dövlətçilik ənənələrimizin bərpası işində böyük işlər görüb, həm də Azərbaycanın müstəqil gələcəyinin əsasını qoyub. Bütün bunlara görə Ulu Öndər bugünkü müstəqil ölkəmizi onun varisi sayıb: "Azərbaycanda gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi, iqtisadi islahatların həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir və bu dövlət, bu quruluş 1918-ci ildə yaradılmış ilk Xalq Cümhuriyyətinin varisidir". Ulu Öndər, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının - Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin və digərlərinin əməyini də yüksək dəyərləndirib.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin təbliği istiqamətində digər addımlar da atıb. Məsələn, XX əsrin 90-cı illərinin respublikamız üçün ağır sınaq illəri olmasına baxmayaraq, ümummilli lider Heydər Əliyev 30 yanvar 1998-ci il "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Qeyd edək ki, həmin Sərəncamda bu tarixi günün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olduğu xüsusi vurğulanıb.

Son illər Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar sayəsində qüdrətli dövlətə çevrilən, müstəqil siyasət aparan, öz qlobal layihələri ilə dünyanı heyrətləndirən və dinamik inkişaf edən ölkəmiz artıq beynəlxalq aləmin də diqqət mərkəzindədir. Bu mənada bu gün müasir müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir.

✍ **Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

GƏNCLİYİMİZ GƏLƏCƏYİMİZDİR

# Azərbaycan sabitlik, əmin-amanlıq məkanıdır

## Müsahibimiz Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı Yeganə Əsgərlidir

***-İndiyə qədər hansı uğurlar qazanmısan?***

-2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın tənzimlənməsi fakültəsinə qəbul olundum. 2014-cü ildə həmin universitetdə magistr dərəcəsi üzrə təhsilimi davam etdirdim. 2018-ci ildə isə doktorantura pilləsi üzrə təhsil almağa başladım. Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyinin Şura və İdarə Heyətinin üzvüyəm. Hər kəs öz məqsədlərini izləməlidir. Bu, uğurun başlanğıcıdır. Həyat şansa buraxılmaq üçün çox qısadır. Həyatımızı dəyərləndirməliyik ki, bu uğuru özümüzlə bərabər cəmiyyətimizin və dövlətimizin də uğuruna çevirə bilək.

***-İxtisasını sevərək seçmisən?***

- Bəli. İxtisasıma sevgim birbaşa olaraq iqtisadiyyatla bağlıdır. Fikrimcə, bütün sahələrdə əldə olunan nailiyyətlər birmənalı olaraq iqtisadiyyatla əlaqəlidir. Mənim bu qədər həvəslə təhsilimi davam etdirməyimin əsas səbəbini ixtisasımı müstəqil seçməyimlə bağlayıram və düşünürəm hər kəs ixtisasını müstəqil seçməlidir. Çünki bu seçim onun həyatını dəyişmə nöqtəsi belə ola bilər.



***-Elmə olan sevginin səbəbi nədir?***

-Elmi tükənməyən dəryaya bənzədirəm. Nə qədər öyrəndim desək də, bilmədiklərimiz bildiklərimizdən çox olaraq qalacaqdır. Bunun özü məni elmlə məşğul olmağa, mütaliələr etməyə sövq edir. Elmdən əldə olunmuş nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru dəyişir. Elm zülmətdən işıqlığa və hüzurun nuruna çatmaqda bizlərə bir çıraqdır.

***-Dövlətimizin yürütdüyü gənclər siyasəti haqqında fikirlərin?***

- Ümummilli lider Heydər Əliyev gəncləri siyasətinin əsas tərkib hissəsi hesab edirdi. Ulu Öndər gənclərə etimad göstərdiyi kimi, gənclər də onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirlər. Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialının yaradılmasına xidmət edirdi. Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi siyasəti nəticəsində bu gün ölkəmiz yeni bir dövrə qədəm qoyur. Cənab Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticələri özünü əhalinin rifah halının yüksəlməsində və iqtisadi inkişaf sahəsində göstərməkdədir. Dövlət başçısının 2007-ci ili "Gənclər İli" elan etməsi çox mühüm tarixi hadisə idi. Bütün bu yaradılan şəraiti və göstərilən etimadı doğrultmaq isə biz gənclərin borcudur.

***-Qeyd etdin ki, Yeni Azərbaycan Partiyasının üzvüsən. Partiyanın yürütdüyü gənclər siyasəti səni qane edirmi?***

- Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın mütərəqqi, düşüncəli gənclərinin partiyasıdır. Ulu Öndərin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır. Partiyamızın sıralarında biz gənclərin sayı gündən-günə artır. Bu özü də YAP-ın nə qədər perspektivli olması, gənclərin inamları ilə birbaşa əlaqəlidir. Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini məhz Yeni Azərbaycan Partiyası ilə bağlayırlar. Cənab Prezident İlham Əliyevin uğurlu siyasətinə öz münasibətlərini bu cür ifadə edirlər. Həmçinin qeyd edərdim ki, gənclərin YAP-ın sıralarında olmalarını özlərini cəmiyyətimizə təqdimat forması kimi də qəbul edə bilərik. Onlar fəallıqlarını cəmiyyətə təqdim edir, özlərini tanıdır və uğurlarının təməlini qoymuş olurlar. Beləliklə, gənclər YAP-ın sıralarına daxil olmaqla özlərinin uğurlu gələcəyi üçün bir giriş kartı əldə etmiş olurlar.

***- Vətən sevgisi sənin üçün hansı anlamı ifadə edir?***

-Vətən Anadır! Torpağı Vətən edən millətin onda yaşadığı tarixdir. Fikrimcə, Vətən bizim evimiz, biz isə Vətəndə yaşayan ailəyik. Vətən bizi qoruyan doğma torpağımızdır. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir. Nə vətənsiz bir millət, nə də millətsiz bir Vətən ola bilər. Vətəni qorumaq dövlət və milləti qorumaq, Vətəni sevmək də dövlət və milləti sevməkdir. Vətənə bağlılıq milli mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır.

***-Son illər Azərbaycan bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir gənc vətəndaş kimi buna münasibətin necədir?***

- Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycana etimadın göstərilməsi təsadüfi deyil, dövlətimizin mövqeyinin, ölkəmizin beynəlxalq çəkisinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında özünü layiqincə doğrultmasının təcəssümüdür. Azərbaycanın çəkisini, rolunu dünya siyasətində hər bir dövlət görür, qiymətləndirir, ölkəmizi etibarlı tərəfdaş kimi dəyərləndirirlər. Eyni zamanda,belə tədbirlər dövlətimizə, xalqımıza müəyyən dividentlər gətirir. Bu da öz növbəsində siyasi və iqtisadi sferada əldə olunan mənfəətləri artırmış olur.

***- Sənin fikrincə, gənclərimizin inkişafı üçün mütaliə nə dərəcədə önəmlidir?***

- Kitab oxumaq insanın ruhunu qidalandırır, daxilindəki mənəvi boşluğu doldurur. Bütün nailiyyətlərin elmi əsaslarla mümkün olduğu müasir dövrdə hər kəs mütaliə etməlidir. Mütaliə etməklə hər bir insan öz baxış bucağını formalaşdırmış olur. Dünyaya, ətraf aləmə qarşı öz mövqeyini yaradır. Kitablar bizim hər zaman ən yaxın dostumuz olmalıdır. İstər yeni biliklər əldə etmək, istərsə də biliyimizin itiliyini daim yeniləmək üçün mütaliə olduqca vacibdir. Hətta gənclər arasında mütaliə etdikləri kitablar haqqında müzakirə saatları keçirməyi təklif edərdim. Hər kəs şəxsiyyət olaraq fərqli olduğundan eyni kitabla bağlı fikirlər də fərqli olur. Bu müzakirələr nəticəsində yeni aspektlər meydana gəlir.



***- Bəs müasir dövrdə sosial medianın bu qədər aktual olmasına münasibətin necədir?***

- Bu gün digər dünya gəncləri kimi, Azərbaycan gəncləri də sosial mediada aktivdirlər. Xüsusi vurğulamaq lazımdır ki, bu gün sosial mediadan daha çox əyləncə xarakterli məlumatlarla maraqlanan gənclər üstünlük təşkil etsələr də, sosial medianın üstünlüklərindən istifadə edərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında fəaliyyət göstərən gənclər də kifayət qədərdir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, sosial media platformasının üstünlüklərindən istifadə etmək hər bir gəncin borcudur. Tövsiyə edərdim ki, gənclərimiz bu sərbəstlikdən və informasiya bolluğundan ölkəmizin inkişafı üçün istifadə etməyə çalışsınlar, özlərini inkişaf etdirərək yeni platformalar yaratmaqla məşğul olsunlar. Dövlətimizə dəstəyi ilə bağlı sosial mediada olan müzakirələrə qoşuluram. Haqlı mövqeyin hər zaman düzgün təbliğinə çalışıram.

***-Gələcək inkişaf üçün xarici dil bilikləri nə dərəcədə əhəmiyyətlidir?***

- Dil bilikləri bügünümüzün ən aktual tələblərindən biridir. Xarici dil biliklərinə yiyələnməklə biz beynəlxalq aləmdə üstünlük qazanmış oluruq. Xarici dil biliyini öyrənməklə, beynəlxalq layihələr və şəxsi inkişafda yüksəliş üçün önəmli imkanlar əldə edirik. Lakin qeyd etməliyəm ki, rəqabət qabiliyyətli təkliflərin hazırlanması bir çox hallarda xarici dildən, birmənalı olaraq ingilis dili biliklərindən asılıdır. Təkliflərin verilməsi, danışıqların aparılması və iri beynəlxalq layihələrin idarə edilməsi üçün ingilis dili bilikləri hər zaman tələb olunur.



***-Gənclərimizi necə görmək istərdin?***

- Ölkəmizdə və ətrafımızda baş verən ən xırda hadisələrə belə anında reaksiya verməyi bacarsınlar. Bir vətəndaş kimi ekologiyanı və ətraf mühiti qorumaq hər birimizin borcudur. Hal-hazırda ekologiya ilə bağlı bir çox problemlər mövcuddur. Hər bir gənci maariflənməyə və daha duyarlı olmağa, öz həyatına və yaxınlarının həyatına biganə qalmamağa çağırıram. Unutmayaq ki, hər bir gənc sağlam gələcək formalaşdırır.

***-Həyata keçirmək istədiyin hansı arzuların var?***

- Həm karyera, həm elm sahəsindəki uğurlarımı daha da artırmaq istəyirəm. Bunların içində ən birincisi isə iqtisad üzrə fəlsəfə elmləri doktoru adını qazanmaqdır. Bu, həyatda qarşıma qoyduğum ilk hədəflərdən biridir.

**Yaqut Ağaşahqızı, "İki sahil"**

## MOSKVADA VELOYÜRÜŞ TƏŞKİL OLUNUB

Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə veloyürüş təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101 illiyinə həsr edilib.

Veloyürüşdə RAGB-nin fəalları, həmçinin dəvət olunmuş qonaqlar iştirak ediblər.

Marafonun təşkil edilməsi sağlam həyat tərzinin təbliği, gənclərin müntəzəm idman məşğələlərinə qoşulması, həmçinin onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədi daşıyır.

Tədbir bütün iştirakçıların salamlanması, ümumi xatirə şəklinin çəkilməsi və marşrut barədə təlimat verilməsi ilə başlayıb.

Qeyd edək ki, Moskva Dövlət Universitetinin əsas binasından başlayaraq Qorki Parkınadək və geriyə uzanan marşrutun uzunluğu 10 kilometrə bərabər olub. Veloyürüş iştirakçıları marşrut boyunca hərəkət zamanı iki dəfə dayanıblar. Dayanacaqlarda mədəni-əyləncəli proqram, o cümlədən "Qarabağ" milli rəqs ansamblının hazırladığı şou nümayiş etdirilib.

Veloyürüşün sonunda təşkilatçılar bütün iştirakçılara və qonaqlara təşəkkür edib, həmçinin göstərdiyi dəstəyə və bu təşəbbüsə görə RAGB-nin sədri Leyla Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# YAP İsmayıllı rayon təşkilatı Gənclər Birliyinə sədr seçilib

Yeni Azərbaycan Partiyası (YAP) İsmayıllı rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

İsmayıllı şəhərindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzində keçirilən tədbirdən öncə qonaqlar gənclərin əl işlərindən ibarət sərgiyə baxıblar.





Konfransda YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Gənclərə diqqət və qayğı Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə həyata keçirilən siyasətin önündə dayanıb. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra gənclər siyasətinin dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi, onlara diqqət və qayğının təzahürü olan bir sıra Fərman və sərəncamların imzalanması Azərbaycan gəncliyini daha fəal olmağa çağırdı. Gənclərimiz bu çağırışlara lazımi şəkildə cavab verməklə, göstərilən etimadı doğrultmaq, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi naminə həyata keçirilən quruculuq prosesində daha yaxından iştirak etmək üçün əzmlə çalışmağa başladılar. Müasir Azərbaycan gəncliyi müstəqil dövlətin gəncləri olaraq özlərini cəmiyyətin fəal təbəqəsi kimi təsdiqləyiblər. Ulu öndər Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətlərindəndir.

Hesabat məruzəsi ilə çıxış edən rayon təşkilatının GB-nin sədr müavini Qönçə Ağazadə, gənc fəallar Ülvü Şamilov, Sevinc Novruzova, Mehman Cəfərov və Gülşən İldırımlı hesabat dövründə rayon təşkilatının sosial bazasının daha da genişləndiyini qeyd ediblər. Çıxış edən gənc fəallar dövlətin gənclərə diqqət və qayğısından, rayonda gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün yeni inşa olunmuş sosial obyektlərin imkanlarından istifadə etmələrinə yaradılan şəraitdən bəhs ediblər, respublikamızın inkişafı və tərəqqisində əzmlə çalışacaqlarını bildiriblər.



Konfransda Milli Məclisin deputatları Novruzəli Aslanov, Sabir Hacıyev, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayev, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, YAP İsmayıllı rayon təşkilatının Şura üzvü Mirdaməd Sadıqov çıxış edərək qeyd ediblər ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvəsi kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Dahi şəxsiyyət gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi.

Natiqlər vurğulayıblar ki, bu gün müstəqil Azərbaycan Ulu Öndərin siyasi davamçısı cənab Prezident İlham Əliyevin səyləri nəticəsində regionun ən güclü dövlətinə çevrilib. Aparılan uğurlu daxili və xarici siyasət sayəsində respublikamız sabitlik adasına çevrilib, iqtisadi cəhətdən möhkəmlənib.

YAP İsmayıllı rayon təşkilatı Gənclər Birliyinin hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab olunub.

Konfransda YAP İsmayıllı rayon təşkilatı Gənclər Birliyinin 17 nəfərdən ibarət Şurası və 9 nəfərdən ibarət İdarə Heyəti müəyyənləşib. Ariz Həsənov səsvermə yolu ilə YAP İsmayıllı rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin növbəti konfransına 2 nəfər nümayəndə seçilib.

Sonda konfrans iştirakçıları adından ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə müraciət qəbul edilib.

Tədbirin sonunda partiya sıralarına daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

## Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində görüş




SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində (TTSİ) Misir Ərəb Respublikasının "GeoEnergy" şirkətinin nümayəndələri ilə görüş keçirilib.

Görüşdə TTSİ-nin rəisi Fuad Süleymanov SOCAR-da həyata keçirilən kadr hazırlığı proqramından və xarici şirkətlərlə qurulmuş işgüzar əlaqələrdən danışıb. Neft-qaz və neft-kimya sənayesində çalışan kadrların müasir səviyyədə hazırlanmasında idarənin nəzdində fəaliyyət göstərən təlim mərkəzlərinin rolunu vurğulayan F. Süleymanov bir sıra xarici akkreditasiya qurumları tərəfindən Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinə beynəlxalq lisenziyaların və sertifikatların təqdim edildiyini də diqqətə çatdırıb.

Səfərin tanışlıq məqsədi daşıdığını qeyd edən "GeoEnergy" şirkətinin nümayəndəsi Mona Elsayed Aladavi təmsil etdiyi qurumun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə məlumat verib, TTSİ-nin təlim mərkəzlərinin imkanlarından faydalanmaq niyyətlərini ifadə edib.

Tərəflər arasında qarşılıqlı fikir mübadiləsi aparılıb və əməkdaşlıq perspektivləri müzakirə olunub.

Sonra "GeoEnergy" şirkətinin əməkdaşları TTSİ-nin Kadr Hazırlığının Təşkili Mərkəzinin imkanları, həyata keçirilən tədris prosesi ilə tanış olublar.

**Səhifəni hazırladı: Orxan Vahidoğlu, *"İki sahil"***

## Qobustanın 3 kəndində içməli su təchizatı yaxşılaşdırılır

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti içməli su çatışmazlığının müşahidə edildiyi kənd və qəsəbələrin su təchizatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Səhmdar Cəmiyyət tərəfindən icra olunan növbəti layihə çərçivəsində Qobustan rayonunun 3 kəndində mərkəzləşdirilmiş su təchizatı sistemi yaradılır.



Qeyd edək ki, Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Qobustan şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün rayonun Təsi kəndinin yaxınlığında 6 subartezian quyusu qazılıb, su mənbəyindən şəhərə 14,4 km magistral su xətti çəkilib. Eyni zamanda kəmərin marşrutu boyu yerləşən Təsi və Bədəlli kəndlərində nasos stansiyası quraşdırılıb, Daşarası və Nərimankənd kəndlərində ümumi tutumu 2000 kubmetr olan 2 ədəd su anbarı inşa edilib. Yaradımış yeni infrastrukturun imkanlarından istifadə etməklə 2012-ci ildə Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərini su ilə təmin etmək üçün magistral xətlər çəkilib, kəndlərdə əhalinin ümumi istifadəsi üçün bulaq və su dayağı quraşdırılaraq sakinlərin suya olan tələbatı qismən ödənilib.

Növbəti mərhələdə bu kəndlərdə mərkəzləşdirilmiş su təchizatı sistemlərinin yaradılmasına qərar verilib. Bu məqsədlə Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərində ümumi uzunluğu 17 km olan paylayıcı su şəbəkəsi inşa edilir. Hazırda su xətlərinin tikintisi yekunlaşmaq üzrədir. Yeni yaradılan şəbəkədən hər bir evə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Kəndlərdə su təchizatının dayanıqlığını təmin etmək məqsədilə hər birinin tutumu 50 kubmetr olan 2 ədəd su anbarı tikilir.

Tikinti-quraşdırma işlərinin yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulur. Bununla da Qobustan rayonunun Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərinin 4 minədək sakini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaqlar.

Xatırladaq ki, Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamları və investisiya layihələri çərçivəsində son 2 ildə 46 rayonun 211 kəndində 330 min sakinin keyfiyyətli içməli suya çıxışı təmin edilib. Bu kəndlərdə su təchizatı ümumi istifadə əsasında bulaqlar vasitəsilə aparıldığından əhalidən ödəniş tələb olunmur. Ümumilikdə son illər Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Bakı şəhəri və regionlarda icra olunan içməli su layihələri dövlət başçısının əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına göstərdiyi diqqətin bariz nümunəsidir.

# Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması milli tariximizin qızıl səhifələrindən biridir

*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramovun www.yap.org.az saytına müsahibəsi*

***-Cəbi müəllim, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101 ili tamam olur. 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə rolu və əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması milli tariximizin qızıl səhifələrindən biridir. Çünki bu tarix Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu tarixdir, Azərbaycanın öz ərazisinə sahib çıxdığı, dünya dövlətləri sırasına qoşulduğu bir gündür. Həmin dövrdə zaman məsələni kəskin qoymuşdu. Məsələnin mahiyyəti ondan ibarət idi ki, Rusiya imperiyası dağılmış, onun tərkibində olan xalqların müstəqilliyi üçün münbit şərait yaranmışdı. Həmin xalqlar öz talelərini həll etməli idilər. Baxmayaraq ki, o vaxtlar Zaqafqaziya Seymi olsa da, dağılmaq üzrə idi. Azərbaycan xalqı özü öz taleyini həll etməli idi.

Məhz o dövrdə Azərbaycanın tarixi taleyini həll etmək iqtidarında olan ziyalılar, ictimai-siyasi xadimlərimiz bu reallığı dərk edərək müstəqilliyimizin elan olunması üçün mücadilə etdilər. Onların bir qrupu Avropada təhsil almışdılar, digərləri isə yüksək demokratik düşüncəyə sahib idilər. Həmin insanlar Azərbaycanın tarix qarşısında bu çətin məsuliyyətini kifayət qədər dərk edib ayağa qalxaraq istiqlaliyyətimizi elan etdilər. Hansı ki, o dövrdə ermənilərin ərazi iddiaları var idi və bu məsələdə kənardan dəstək alırdılar. Həmçinin Rusiya imperiya iddialarından əl çəkməmişdi. Bütün çətinliklərə baxmayaraq, həmin şəxslər müstəqil dövlət qurdular. Çox qədim dövlətçilik ənənələri olan bir xalq kimi biz 1918-ci il mayın 28-də tarixi torpaqlarımızın şimalında dövlətçiliyimizi bərpa etdik. Dövlətçiliyin bərpasını istər siyasi, istər iqtisadi, istər mənəvi-psixoloji, bütün aspektlərdən götürəndə xalqımızın həyatında çox mühüm bir hadisə idi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, tariximizdə şanlı və şərəfli yer tutur. 2019-cu ildə Xalq Cümhuriyyətinin elan edilməsindən 101 il ötür. Bu tarixlə bağlı ulu öndər Heydər Əliyev deyirdi ki, Azərbaycan xalqının dövlətçilik tarixi, qədim mədəniyyəti bütün çətinliklərə baxmayaraq imkan verdi ki, xalqımız yenidən dövlətçiliyini bərpa etsin və tariximizə şanlı səhifələrini yazsın. Təsadüfi deyil deyil ki, Ulu Öndərin 1998-ci ilin yanvar ayında imzaladığı Sərəncamla Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi qeyd olundu. Biz keçən il Cümhuriyyətin 100 illiyini qeyd etdik. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu. Cümhuriyyətin 100 illik yubileyi çox yüksək səviyyədə qeyd edildi. Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Ulu öndər Heydər Əliyevin dediyi kimi Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir. Həyat nə qədər varsa, müstəqil dövlətimiz var olacaq. Bu il Cümhuriyyətinin 101 yaşını qeyd ediriksə, vaxt gələcək 1001 yaşı qeyd olunacaq.

***-Xalq Cümhuriyyəti cəmi 23 yaşasa da, Azərbaycan ötən əsrin sonlarında öz dövlət müstəqilliyini bərpa etdi. Bu dövrü necə xarakterizə edərdiniz?***

-İki ildən sonra müstəqilliyimizin bərpasının 30 illiyini qeyd edəcəyik. Xalqımız çox ağır, eyni zamanda, şərəfli yol keçib. Müstəqilliyimizi bərpa etdikdən sonra həyatımızın yeni səhifəsini yazmağa başladıq, öz taleyimizin sahibinə çevrildik. Amma dövlətçiliyimizin bərpası asan olmadı. Keçmiş SSRİ-nin, Rusiyanın hərbi-siyasi dairələrinin təhriki ilə erməni faşizmi Azərbaycana qarşı ərazi iddiaları irəli sürdü və nəticədə xalqımıza qarşı genişmiqyaslı hərbi təcavüz başladı. Həm Rusiyanın hərbi-siyasi dairələrinin, həm də Qərb ölkələrinin yardımı olmasaydı, ermənilər belə bir cinayətə əl ata bilməzdilər. Bu, təkzibolunmaz faktdır. Bütün bunlara baxmayaraq, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı xalqımızı uçurumdan xilas etdi. 28 aprel 1920-ci ildə müstəqilliyimizi itirdiksə, 15 iyun 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə biz milli dövlətçiliyimizi xilas etdik. Ona görə də həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.



Təbii ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevə çox ağır miras qalmışdı. Amma böyük dövlət xadimi Heydər Əliyevin milli dövlətçilik istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan bütün çətinlikləri dəf etdi. Azərbaycan xalqı sübut etdi ki, dövlət yaratmaq və idarə etmək iqtidarında olan xalqdır. Eyni zamanda, xalqımız Heydər Əliyevin timsalında çətin anlarda xalqı xilas edib onu çox düzgün istiqamətə yönəltmək bacarığı olan şəxsiyyət yetişdirdiyini də sübut etdi. Məhz buna görə də xalqımız haqlı olaraq ümummilli lider Heydər Əliyevi müstəqil Azərbaycanın memarı və qurucusu hesab edir.

Biz tariximizə nəzər salsaq, Azərbaycan xalqının dünya tarixinə görkəmli dövlət xadimləri verdiyini görərik. Onların sırasında Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah İsmayıl, Əlimərdan bəy Topçubaşovun və başqalarının adını çəkə bilərik. Eyni zamanda, xalqımız elm, mədəniyyət sahəsində də bəşəriyyət üçün görkəmli şəxsiyyətlər yetişdirib. Məsələn, Nizami Gəncəvi səviyyəsində məm böyük yaradıcı insan, mütəfəkkir dünyada tanımıram. Eləcə də, Nəsimi XV əsrdə yaşamış dünyanın ən böyük filosoflarından biri olub. Mən həmçinin, Üzeyir Hacıbəyov, Yusif Məmmədəliyev, Qara Qarayev kimi böyük şəxsiyyətlərin də adını çəkə bilərəm ki, xalqımızın yetişdirdiyi bu insanlar dünya mədəniyyətinə və elminə böyük töhfələr veriblər. Təbii ki, ümummilli liderimiz Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdəndir. Heydər Əliyev millətimizin qürurudur, müstəqil dövlətimizin qurucusudur. Ona görə də Azərbaycan xalqı öz qəlbində Ulu Öndərimizin əbədi abidəsini ucaldıb.

***- Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycanın bugünkü inkişafı, qazandığı uğurlar haqqında nə deyə bilərsiniz?***

- Ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti bu gün dünya miqyasında böyük nüfuza malikdir. Prezident İlham Əliyev Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasəti uğurla həyata keçirir. Müdrik, uzaqgörən dövlət xadimi kimi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı firavan gələcəyə aparır. Müstəqil dövlətimiz bu gün çox etibarlı əllərdədir. Ulu öndər Heydər Əliyevin vurğuladığı kimi, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir, dönməzdir. Bu müdrik kəlam uğurla inkişaf edən müstəqil ölkəmizin timsalında öz təsdiqini tapır.

Bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətlərindən biridir, ölkəmiz dünyaya yeni simada təqdim olunur. Müstəqil Azərbaycanımız Avropanın enerji təhlükəsizliyinin əsas təminatçısıdır, ölkəmizin razılığı olmadan regionda heç bir beynəlxalq layihə reallaşa bilməz. 28 illik müstəqilliyimiz dövründə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv oldu ki, dünyada söz sahibi olan dövlətlər sırasına qoşuldu. Bu gün Azərbaycanın üçrəngli bayrağı BMT-də, Avropa Şurasında, ATƏT-də və digər mötəbər beynəlxalq qurumların önündə ucalır. Bu bayram ərəfəsində arzu edirəm ki, dövlətimiz daha da güclənsin və bayrağımız əbədi olaraq zirvələrdə dalğalansın.

Azərbaycanın yeganə problemi Ermənistanın torpaqlarımızı işğal etməsidir. Qarşımızda duran başlıca vəzifə ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Biz erməni faşizminə qarşı mübarizə aparırıq. Təəssüf ki, bu reallığı dünyanın aparıcı dövlətləri görmək istəmir, əksinə işğalçıya yardım edirlər.1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində dünyanı xilas edən Azərbaycan xalqı idi. Bakı nefti, xalqımızın qəhrəman oğulları olmasaydı, müharibədə qələbə qazanmaq mümkün deyildi. Müharibə illərində Azərbaycanda 131 adda silah istehsal edilirdi. İkinci dünya müharibəsində SSRİ-yə nefti biz vermişik. 110 milyon ton neftdən 75,2 milyon ton Azərbaycanın payına düşürdü. Təkcə SSRİ-ni deyil, Avropa xalqlarını faşizm zülmündən xilas edən Azərbaycan xalqıdır.

Amma inanıram ki, bu yöndə görülən işlər nəticə verəcək, tezliklə xalqımızın öz gücü, intellektual, iqtisadi, hərbi qüdrəti hesabına torpaqlarımız işğaldan azad olunacaq. Möhtərəm Prezidentimiz İlham Əliyev hər zaman deyir ki, İrəvan, Göyçə, Zəngəzur bizim tarixi torpağımızdır. Bizim heç kimə qarşı torpaq iddiamız yoxdur. Biz bütün itirilmiş torpaqlarımıza geri qayıdacağıq.

***-Cəbi müəllim, AMEA-nın Tarix İnstitutu Azərbaycan Xalq Cümhuriyyəti haqqında sanballı elmi əsərlər hazırlayıb. Hazırda bu istiqamətdə hansı işlər görülür?***

- Bu istiqamətdə fəaliyyətimiz davam edir. İnstitutumuzda Azərbaycan Xalq Cümhuriyyəti tarixi şöbəsi fəaliyyət göstərir. İnstitutun direktoru, akademik Yaqub Mahmudovun baş redaktorluğu ilə ikicildlik Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası nəşr olunub. Əlavə olaraq Cümhuriyyətin şəxsiyyətləri haqqında əsərlər hazırlanır. AXC ilə bağlı bir sıra tarixi sənədlər müxtəlif ölkələrin arxiv sənədlərində saxlanılır ki, onlar instituta gətirilir və elmi dövriyyəyə daxil edilir.

AXC-nin fəaliyyəti Tarix İnstitutunun müvafiq şöbəsində tədqiq olunmaqla bərabər həm də bu mövzuda dissertasiya işləri yazılıb müdafiə olunur.

# BSU-da Respublika Günü qeyd olunub





Mayın 27-də Bakı Slavyan Universitetində (BSU) 28 May - Respublika Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirin əvvəlində ümummilli lider Heydər Əliyevin BSU-nun foyesində yerləşən büstü önünə əklil qoyulub, Dövlət himni səsləndirilib, müstəqillik uğrunda canından keçən soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri açan tərbiyə işləri üzrə prorektor Xanım Sultanova BSU-da Respublika Günü ilə əlaqədar silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb, əlamətdar gün münasibəti ilə iştirakçıları təbrik edib.

Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Habil Məmmədov "Azərbaycanın dövlətçilik tarixində AXC-nin yeri" mövzusunda məruzə ilə çıxış edib. H.Məmmədov bildirib ki, AXC beynəlxalq münasibətlər və xarici siyasət sahəsində önəmli diplomatik addımlar atıb, Rusiya və Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə mehriban münasibətlər yaradıb. Cümhuriyyət hökumətinin xarici siyasətinin ən önəmli uğurlarından danışan H.Məmmədov Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasını həmin uğurlardan biri kimi dəyərləndirb.

Sonra AXC-nin tarixini əks etdirən video-çarxın nümayişi olub.

Nümayişin ardından çıxış edən Nəsimi Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Şahmar Tağıyev AXC dövründə gənclərin dövlət siyasətində rolu, hökumətin azərbaycanlı gənclərin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qəbul etdiyi qanun və qərarlardan söz açıb. Ş.Tağıyev bildirib ki, Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlar həyata keçirilib. Prezident İlham Əliyevin müasir dövrdə gənclərə göstərdiyi diqqət və qayğıdan danışan Şahmar Tağıyev gənclər siyasətinin dövlətin əsas istiqamətlərindən biri olduğunu qeyd edib.

Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin tələbəsi Aynurə Rüstəmovanın "AXC-nin təhsil siyasəti" mövzusunda məruzəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəni-maarif sahəsində görülən bir sıra mühüm tədbirlər, türk dilinin dövlət dili elan edilməsi, məktəblərin milliləşdirilməsi və təhsil sahəsində həyata keçirilən digər islahatlar barədə danışıb.

Sonda tələbələrin ifasında vətənpərvərliklə bağlı şeirlər səsləndirilib.

# ADNSU-da Respublika Gününə həsr olunmuş tədbir keçirilib





Mayın 27-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) 28 May - Respublika Günü münasibətilə tədbir keçirilib. Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Hüseynbala Mirələmov, həmçinin universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. ADNSU-nun rektoru, professor Mustafa Babanlı 28 May tarixini Azərbaycan xalqının milli kimliyini tapdığı gün kimi qiymətləndirib. Cümhuriyyətə qədər xalqımızın keçdiyi tarixi yoldan danışan rektor, professor Mustafa Babanlı Azərbaycanın olduqca mürəkkəb şəraitdə öz müstəqilliyini elan etməsinin böyük cəsarət tələb etdiyini vurğulayıb. Yenidən müstəqilliyə qovuşduqdan sonra ölkəmizin ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçdiyini bildirən rektor Mustafa Babanlı hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Hikmət Babaoğlu Azərbaycanın Xalq Cümhuriyyətinin fəaliyyətindən danışıb. Müsəlman Şərqində ilk demokratik respublika olan AXC-nin ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxdığını deyən H.Babaoğlu bu dövlətin cəmi 23 ay yaşamasına baxmayaraq böyük işlər gördüyünü qeyd edib.

Milli Məclisin deputatı, professor Hüseynbala Mirələmov uzun illər Rusiya imperiyasının əsarətində qalan ölkənin olduqca mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini elan etməsinin böyük cəsarət tələb etdiyini qeyd edib. Müsəlman Şərqində ilk demokratik respublikanın Azərbaycanda yarandığını diqqətə çatdıran H.Mirələmov demokratik hüquq və azadlıqların təmin edilməsinin, etnik, dini və siyasi mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlara malik olmasının, Şərqdə ilk dəfə qadınlara seçki hüququnun verilməsinin, Azərbaycan dilinin rəsmi dil elan olunmasının, milli ordunun və dövlət idarəetmə qurumlarının təşkilinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirildiyini bildirib.

Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov bu gün müasir Azərbaycan Respublikasının şanlı tarixi yol keçmiş Cümhuriyyətin varisi olduğundan hər bir Azərbaycan vətəndaşının şərəf duyduğunu bildirib. Hazırda Azərbaycanın heç vaxt olmadığı qədər güclü olduğunu qeyd edən Salman Salmanov hər bir vətəndaşın Prezident İlham Əliyevin ətrafında sıx birləşməli olduğunu vurğulayıb.

**Rəşad Bağırov,**
***"İki sahil"***

**Naxçıvan Muxtar Respublikası - 95**

# 90-cı İLLƏRİN ORTALARINDA NAXÇIVAN SƏNAYESİNDƏ YENİ İNKİŞAF MƏRHƏLƏSİNİN BAŞLANMASI

**Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı ümummilli liderimiz Heydər Əliyevin hər iki hakimiyyəti dövründə özünün əsl inkişaf mərhələsinə qədəm qoymuşdur. 1969-1985-ci illərdə Naxçıvanda 22 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Ulu Öndərimizim birinci hakimiyyəti dövründə Azərbaycanın sənaye məhsulunun 2,6 faizi Naxçıvan iqtisadi rayonunun payına düşüb.**



**Nazim Əhmədov,**
*iqtisad elmləri doktoru, professor*

Naxçıvanda fəaliyyət göstərən sənaye sahələrinin sahə quruluşunun təhlili göstərir ki, bu qovşaqda sənaye məhsullarının 70 faizdən çoxu yeyinti sənayesində, 10 faizi isə yüngül sənaye sahəsində istehsal olunur.

1991-ci ildə SSRİ-nin dağılması ilə əlaqədar respublikalar arasında mövcud olmuş əlaqələrin qırılması, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibəsi, bazar münasibətlərinə keçidlə əlaqədar meydana çıxan problemlər ölkə iqtisadiyyatında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da iqtisadi inkişafına ciddi şəkildə təsirini göstərmişdir.

1998-2003-cü illəri əhatə edən beş il ərzində Naxçıvanda sənaye istehsalının inkişaf dinamikası sabit olmamışdır. Muxtar respublikada 1991-ci ildə 47,3 mln. manat məbləğində sənaye məhsulu istehsal edilmiş, sənaye sahəsində yaranmış durğunluq və böhranlı vəziyyət 1995-ci ildən aradan qaldırılmış, 1996-cı ildən başlayaraq isə istehsalın həcmi artmışdır. 1996-cı il digər sahələrdə olduğu kimi sənaye sahəsində də sabitləşmə dövrü kimi xarakterizə olunur. 2003-cü ildə sənaye istehsalının həcmi 88,0 mlrd. manat olmuşdur ki, bu da 1996-cı ilə nisbətən 1,8 dəfə, 2001-ci ilə nisbətən 1,5 dəfə çoxdur.

Muxtar respublikada sənaye məhsulunun 2003-cü ildə 81,9 faizi məhsul istehsalının, 18,1 faizi isə xidmətlərin payına düşmüşdür. 2004-cü ildə isə istehsalın ümumi həcmində məhsul istehsalının payı 72,3 faiz, xidmətlərin payı isə 27,7 faiz təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarından aydın olur ki, 2003-2004-cü illəri əhatə edən iki ildə muxtar respublika sənayesində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, 2003-cü ildə sənaye istehsalı 2001-ci ilə nisbətən 45,0 faiz, 2002-ci ilə nisbətən isə 27,6 faiz artmışdır. Bu artım 2004-cü ildə isə 2003-cü illə müqayisədə 29,7 faiz təşkil etmişdir. Təhlil göstərir ki, son dövrlərdə həyata keçirilən tədbirlər nəticəsində bu inkişafın davamlılığı artırılmaqdadır. Qeyd etmək lazımdır ki, 2004-cü ildə sənaye sahəsində artım əsasən toxuculuq məmulatları istehsalı, mebel istehsalı, nəşriyyat işi, poliqrafiya sənayesi, çap materiallarının dərc edilməsi, habelə elektrik maşınları və cihazlarının təmiri sahələrində baş vermişdir.

2004-cü ildə muxtar respublikada sənaye məhsulunun 42,9 faizi Naxçıvan şəhərinin, 17,0 faizi Babək rayonunun, 5,6 faizi Culfa rayonunun, 6,6 faizi Ordubad rayonunun, 3,0 faizi Sədərək rayonunun, 3,9 faizi Şahbuz rayonunun, 17,0 faizi Şərur rayonunun, 4,0 faizi isə Kəngərli rayonunun payına düşmüşdür.

2004-cü ildə sənaye məhsulunun 0,8 faizi hasilat, 60 faizi emal sənayesi, 39,2 faizi isə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi üzrə müəssisələrdə istehsal olunmuşdur. 2003-cü illə müqayisədə 2004-cü ildə məhsul istehsalı hasilat sənayesində 19,3 faiz, emal sənayesində 31,9 faiz, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sektorunda 25,8 faiz artmışdır.

İndiki şəraitdə Naxçıvan Muxtar Respublikasında aşağıdakı sahələri sənayenin inkişaf prioritetlərinə aid etmək olar:

- Yerli kənd təsərrüfatı xammalının emalını və son məhsullar istehsalını təmin edən emal, yüngül və yeyinti sənaye sahələrinin öncül və sürətli inkişafı;
- İstehsal infrastrukturunun modernləşdirilməsi və inkişafı;
- Sahibkarların və müəssisələrin innovasiya fəaliyyətinin inkişafı və s.

Muxtar respublikamızda müstəqillik dövründə yeni iqtisadi sistem - bazar iqtisadiyyatı təşəkkül tapdıqdan sonra iqtisadiyyatın strukturunda mühüm dəyişikliklər baş verdi. Hələ inzibati amirlik sisteminin mövcud olduğu dövrdə “planlı iqtisadiyyat” adı altında tələb və təklif tarazlığı gözlənilmədən, müttəfiq respublikalarda siyasi motivlər üzərində qurulan “sənaye müəssisələri şəbəkəsi” birlik üzvlərinin iqtisadi asılılığını təmin etmək məqsədi daşıyırdı. Məhz müstəqilliyimizin ilk illərində bu əlaqələrin kəskin qırılması öz mənfi təsirini muxtar respublika sənayesində də göstərdi. Belə ki, qurulmuş müəssisələrdə infrastruktur və istehsal xətləri müasir tələblər səviyyəsində deyildi. Eyni zamanda, həmin müəssisələrin istehsalı olan əmtəələrlə yerli tələbat arasında ciddi uyğunsuzluqlar mövcud idi.

Lakin 2000-ci ilin əvvəllərində muxtar respublikamızda sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi, yeni təsərrüfat subyektlərinin formalaşdırılması və bu sahədə səmərəli idarəetmənin təşkili adı çəkilən problemlərin tam şəkildə aradan qaldırılması ilə yanaşı müasir standartlar səviyyəsində sənaye infrastrukturunun formalaşması şərtləndirmişdir. Artıq Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir.

Muxtar respublikamızda son dövrlərdə yaradılan əlavə dəyərin tərkibində sənaye məhsulunun xüsusi çəkisi davamlı şəkildə artmaqdadır. Sənaye məhsullarının ixracında emal sənayesi məhsullarının xüsusi çəkisinin artırılmasının stimullaşdırılması, yüksək əmək məhsuldarlığına malik müasir müəssisələr şəbəkəsinin yaradılması, mövcud sənaye müəssisələrinin yenidən qurulması, analoji xarici şirkətlərlə iqtisadi əlaqələrin yeni müstəvidə formalaşması ilə bağlı əsaslı tədbirlər aparılmaqdadır. İlkin mərhələ üzrə bu sektorda özəlləşdirmə prosesinin intensivləşdirilməsi və satış bazarı olan, yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun sayılan sənaye müəssisələrinin fəaliyyətinin bərpası nəticəsində nəzərə çarpacaq irəliləyişlər əldə olunmuşdur.

2006-cı ildə ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 70 milyon 444 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2005-ci illə müqayisədə 64,2 faiz çoxdur. İstehsalın ümumi həcmində məhsul istehsalının payı 73,3 faiz, xidmətlərin payı isə 26,7 faiz təşkil etmişdir.

Sənaye məhsulunun 0,4 faizi hasilat, 77,3 faizi emal sənayesi, 22,3 faizi isə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi müəssisələrində istehsal olunmuşdur. Məhsul istehsalı mədənçıxarma sənayesində 8,1 faiz, emal sənayesində 69,7 faiz, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sektorunda 48,7 faiz artmışdır.

Sənaye sahəsində əldə edilmiş uğurlar aşağıdakı cədvəldən də aydın görmək olar.

Cədvəl 1.

Naxçıvan MR-da 2004-2007-ci illərdə sənaye məhsulunun dinamikası

| | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| Sənaye məhsulunun həcmi (milyon manatla) | 25,6 | 41,2 | 70,4 | 122,7 |
| Artım templəri (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə) | 29,7 | 56,2 | 64,2 | 66,0 |

Cədvəl məlumatlarından məlum olur ki, muxtar respublikada sənaye məhsulunun həcmi 2004-cü ilə nisbətən 2007-ci ildə 4,8 dəfə artmışdır. Artım tempi isə 2007-ci ildə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 66,0 faiz artmışdır.

Naxçıvan Muxtar Respublikasında 2004-cü ildə 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə ÜDM istehsalı 16,2 faiz artmışdır. Ümumi daxili məhsulun 74,4 faizi iqtisadiyyatın məhsul istehsalı sahələrində, 27,6 faizi xidmət sahələrində yaranmışdır. 2003-cü illə müqayisədə məhsul istehsalı sahələrində 12,5 faiz, xidmət sahələrində isə 27,3 faiz artım əldə edilmişdir.

Muxtar respublikada sənaye məhsulunun 60 faizi emal sənayesi, 39,2 faizi isə elektrik enerjisi, qaz və su təchizatı müəssisələrində istehsal olunmuşdur. Məhsul istehsalı hasilat sənayesində 19 faiz, emal sənayesində 32 faiz, elektrik enerjisi, qaz və su təchizatı sektorunda 25 faiz artmışdır.

Ümumiyyətlə, iqtisadiyyatın əsas lokomotivi sayılan sənaye sonrakı illərdə öz inkişaf sürətini daha da artırmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun həcmi 2013-cü ildə 2003-cü illə müqayisədə 49 dəfə, ixracın həcmi isə 96,6 dəfə artmışdır.

2003-cü illə müqayisədə muxtar respublikada sənaye müəssisələrinin sayı 7 dəfə artaraq 2013-cü ildə 438-ə çatmışdır. Bu isə öz təsirini ÜDM-də qabarıq şəkildə göstərərək onun həcminin 2 milyard 339 milyon manata çatmasını təmin etmişdir. Beləliklə, 2013-cü ildə 862 milyon 871 min manat sənaye məhsulu istehsal olunmaqla ÜDM 1-ci yeri özü üçün təmin etmişdir.

Habelə, 2013-cü ildə muxtar respublikanın sənaye müəssisələrində 15385 nəfər işçi çalışmışdır ki, bu da 2003-cü illə müqayisədə 5,4 dəfə çoxdur.

2013-cü ildən sonrakı illərdə də muxtar respublikada bir çox tədbirlər həyata keçirilmiş və sənaye sahəsində aparılan dövlət siyasəti daha təkmil xarakter almışdır.

2014-cü il ölkəmizdə “Sənaye ili” elan edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərmanla qəbul edilən “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” muxtar respublikada da uğurla həyata keçirilir. Hesab etmək olar ki, bu proqramın başa çatmasına qalan 2 il ərzində sənaye istehsalı daha da artacaq, sənaye müəssisələrinin modernləşməsi davam edəcək, rəqabət qabiliyyətli məhsullar istehsalı imkan verəcək ki, ixrac potensialı daha da artsın.

Onu da qeyd etmək lazımdır ki, son illərdə muxtar respublikada yeni sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi işi sürətlə davam etdirilir.

Statistik məlumatların təhlili göstərir ki, 1995-ci ilin axırına muxtar respublikada cəmi 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, bu rəqəm son 23 ildə daha da artaraq 2018-ci ildə 442-yə çatmış və ya təxminən 8 dəfə artmışdır.

Beləliklə, yeni müəssisələrin yaradılması və genişləndirilməsi muxtar respublikada sənaye məhsulu istehsalının dinamikasına da öz müsbət təsirini göstərmişdir. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Cədvəl 2.

Naxçıvan Muxtar Respublikasında sənaye məhsulu istehsalının dinamikası (milyon manatla) (1995-2018-ci illər)




Cədvəl məlumatlarının təhlili göstərir ki, ölkəmizdə 1996-cı ildə makroiqtisadi sabitlik yarandıqdan sonra muxtar respublikamızda sənaye məhsulu istehsalı sürətlə artmışdır. Belə ki, əgər 1995-ci ildə muxtar respublikada cəmi 9,1 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdusa bu rəqəm 2018-ci ildə 990,1 milyon manata çataraq son 23 il ərzində 981 milyon manat və ya 110 dəfəyə yaxın artmışdır.

# SOCAR-ın TENDERLƏRİ

SOCAR
"Azərikimya" İB

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azərikimya" İstehsalat Birliyi

**"Etilen-polietilen" zavodunun L-38, L-44, MPM-3 yarımstansiyalarında, PQ-1,2,3,5-də elektrik avadanlıqlarının rele mühafizəsi və avtomatika sxemlərinin sazlanması işlərinin satın alınması üzrə (31003TX-19) AÇIQ MÜSABIQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (müraciət formasını http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices linkindən əldə etmək olar);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 14 iyun 2019-cu il, Bakı vaxtı ilə saat: 17:30-qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 25 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 14.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər ƏDV daxil 200.0 (iki yüz ) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 40 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ5000, Azərbaycan Respublikası
Sumqayıt şəhəri
Səməd Vurğun küçəsi 86
**Əlaqələndirici şəxs:**
Təmir-tikinti şöbəsinin mühəndisi Mehriban Zeynalova Daxili: 31033
Korporativ mobil:050 843 12 30 mehriban.a.zeynalova@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 25 iyun 2019-cu il, tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**təmir işlərinin yerinə yetirilməsi zamanı təhlükəsizlik normalarına, beynəlxalq standartların tələblərinə uyğun ayaqaltıların (scaffolding) quraşdırılması" üzrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17005TX-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi(ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
* Müsabiqə təklifinin təminatı.
* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.06.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü olmalıdır.
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - 10 000 AZN (dörd min manat) olmaq şərtilə, 28.06.2019-ci il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2surəti olmaqla 28.06.2019-cu- il, Bakı vaxtı ilə saat: 10.00- qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 500 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təsdiq olunduğu gündən 12 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1060(indeksnömrəsi);
Bakı şəhəri (yerləşdiyi şəhər);
Nizami rayonu (yerləşdiyi inzibati rayon və qəsəbə);
O.Vəliyev küç 1 (yerləşdiyi küçə və ya prospekt);
Zavodun HİK inzibati binası (yerləşdiyi bina, mərtəbə).
**Əlaqələndirici şəxs:**
Zaur Vəliyev (soyadı və adı).
Əsaslı tikinti şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
521-00-00 (17-819) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob:050 841 78 19
521-23-03 (əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
Zaurs.veliyev@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)
Təklif və şikayətləriniz olduğu hallarda bu elektron ünvana müraciət edə bilərsiniz:
isa.dadashli@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 28.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Heydər Əliyev adına Neft Emalı Zavodunun Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**But daşına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25097-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 13.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 20.06.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
* 1-ci lot üzrə 354 manat (ƏDV-ilə)
* 2-ci lot üzrə 59 manat (ƏDV-ilə)

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Bank təminatı:**
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Zeynalov Samir
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-00-00 25-067
Korporativ mobil: +994 50 842 50 67
Elektron ünvan: samir.zeynalov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 20.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**inert materiallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25094-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 13.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 20.06.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
* 1-ci lot üzrə 177 (ƏDV-ilə)
* 2-ci lot üzrə 354 (ƏDV-ilə)
* 3-cü lot üzrə 354 (ƏDV-ilə)

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin sifariş əsasında yerinə yetirilməsi tələb olunur.
**Bank təminatı:**
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Zeynalov Samir
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-00-00 25-067
Korporativ mobil: +994 50 842 50 67
Elektron ünvan: samir.zeynalov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 20.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

# "The Daily Star": Arsenal Henrix Mxitaryanı satmağı qərara alıb






**Böyük Britaniyanın "The Daily Star" qəzetində "Arsenal Henrix Mxitaryanı satmağı qərara alıb - Onlar əmindilər ki, o, artıq heç bir şey edə bilməyəcək" sərlövhəli məqalə yerləşdirilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə "Arsenal"ın bu yay Henrix Mxitaryanı komandadan uzaqlaşdırmağı planlaşdırdığı bildirilir. Qeyd olunur ki, Mxitaryan mayın 29-da UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" arasında Bakıda keçiriləcək final matçında iştirak etməyəcək. Mxitaryan təhlükəsizlik qorxusu ilə əlaqədar Azərbaycan paytaxtına səfər etmək əvəzinə Londonda qalmağa üstünlük verib.

Bəs Mxitaryanın bu Bakı "sevgisi" nədən qaynaqlanır? Qeyd edək ki, Mxitaryan "Arsenal"ın Premyer Liqadakı oyunlarında müntəzəm çıxış etmir. Bununla da ona bəslənən ümidləri doğrultmayan futbolçu çox vaxt ehtiyatda saxlanılır. Son matçlarda müşahidə edilən məqamlar da "Arsenal" rəhbərliyinin haqlı olduğunu düşünməyə əsas verir. Belə ki, futbolçu ona olan inamı doğrultmur. Məhz bu səbəbdən də bir çox matçı ehtiyat oyunçular skamyasında keçirir. Bu isə "Arsenal" rəhbərliyinin haqlı narahatlığına səbəb olub.

Bu yerdə bir xatırlatma etsək pis olmaz. "Henrix Mxitaryan Premyer Liqada çıxış etməyə başladığı 2016-cı ildən bəri ortaya yaxşı oyun qoya bilmir. Üç il əvvəl "Borussiya Dortmund"dan "Mançester Yunayted" klubuna transfer edilən erməni yarımmüdafiəçi burada ümidləri doğrultmadığından ötən il "Arsenal"a satılıb". Bu fikirlər "football-news24.com" saytında dərc olunan məqalədə yer alıb. Zənnimizcə, əlavə şərhə ehtiyac qalmır.

Digər yandan, ölkəmizin onun təhlükəsizliyinə zəmanət verməsinə rəğmən, erməni əsilli futbolçunun Azərbaycana gəlmək istəməməsi xarici qüvvələrin də ölkəmizə qarşı çirkin kampaniyasının bir hissəsinə çevrilib. Mxitaryanı gündəmdə saxlamaqla onun transfer qiymətini artırmaq yolunu seçən "Arsenal", istisna deyil ki, gələcək məğlubiyyətdən də sığortalanmaq məqsədi güdür. Eyni zamanda, Mxitaryan özü də bu qalmaqalda maraqlıdır. Çünki özünün də bildiyi kimi, sabun köpüyündən hazırlanan bu əsassız gündəmlə dünya mediasının diqqətinə düşüb və çox "reklam" olunub. Bu məsələdən Ermənistan dövləti və erməni lobbisi də Azərbaycana qarşı istifadə etməyə çalışdı. Ancaq istəklərinə nail olmadılar...

AFFA-nın baş katibi Elxan Məmmədov İspaniyanın məşhur idman qəzeti "Marca"ya müsahibəsində Mxitaryanın təhlükəsizliyi ilə bağlı danışarkən deyib ki, AFFA ilə UEFA-nın Mxitaryanın təhlükəsizliyinə zəmanət verilməsi barədə müvafiq məktub "Arsenal"a göndərilib: "Biz həmişə siyasəti futboldan ayırırıq. Biz çox məyusuq, çünki Mxitaryanın təhlükəsizliyinin təmin edilməsi üçün bizim tərəfimizdən bütün tədbirlər görülüb. Buna görə də narahatlığa heç bir əsas yoxdur. Bu zəmanət Azərbaycan tərəfindən verilib. Yeri gəlmişkən, son on ildə çoxlu sayda erməni idmançı Azərbaycanda keçirilən bir neçə beynəlxalq turnirdə heç bir problemlə üzləşmədən iştirak edib. Düşünürəm ki, Mxitaryanın iştirak etməməsi bu möhtəşəm oyunun nə keyfiyyətinə, nə də cəlbediciliyinə təsir göstərəcək".

Hər kəsə aydındır ki, Bakı son illər dünyanın idman mərkəzlərindən birinə çevrilib, ölkəmizdə hər il keçirilən müxtəlif beynəlxalq yarışlarda və tədbirlərdə iştirak edənlər arasında ermənilər də var. Çox da uzağa getməyək. Bu günlərdə Bakıda start götürən aerobika üzrə Avropa çempionatında Rusiyanı təmsil edən erməni əsilli gimnast Qarsevan Canazyan AZƏRTAC-a müsahibəsində deyib: "Bakıda insanlar mehribandırlar. Onlar köməyə ehtiyac duyduğumuz zaman heç vaxt bunu əsirgəmirlər. Paytaxtınız çox gözəldir. İmkan olan kimi şəhəri gəzməyə çıxırıq. Burada tam sərbəst gəzə bilirik. 2015-ci ildə Bakıda keçirilmiş birinci Avropa Oyunlarında da iştirak etmişik. Həmin yarışlardan xoş təəssüratlarla ayrılmışıq. Bakıda təhlükəsizlik çox yüksək səviyyədə təmin olunub. Bizi burada hər şey qane edir".

"Arsenal" komandasının erməni futbolçusu Henrix Mxitaryanın UEFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşmasında iştirak etmək istəməməsinə münasibət bildirən Duxik Canazyan deyib: "Düşünürəm ki, idmanla siyasəti qarışdırmaq düzgün deyil. Mən onun yerinə olsaydım, komandamı dəstəkləyib onun yanında olardım".

Erməni əsilli digər rusiyalı gimnast Duxik Canazyan: "Bakıda yarışlar yüksək səviyyədə təşkil edilib. Burada hər şey çox mükəmməldir. Bakı təhlükəsiz şəhərdir. Ona görə də buradakı yarışlarda məmnuniyyətlə iştirak edirik. İnsanlar çox mehribandırlar. Hər məsələdə bizə kömək edirlər. Azərbaycanın milli xörəkləri çox dadlıdır. Burada qalmaq, məşqlər etmək üçün hər cür şərait var. Dörd il əvvəl Bakıda keçirilən birinci Avropa Oyunlarında iştirak etmişik. Bakıda gözəl idman ab-havası var".

Duxik Canazyan da açıqlamasında idmanı siyasətlə qarışdırmağın düzgün olmadığını vurğulayıb.

Başqa bir misalı isə elə Ermənistanın özündən çəkək. "Azərbaycana və UEFA-ya ünvanlanan tənqidlər başadüşülən deyil. Henrix Mxitaryan Bakıda keçiriləcək final oyununda iştirak etməməklə bağlı qərarı özü qəbul edib. Halbuki Azərbaycan tərəfi onun təhlükəsizliyi üçün tam zəmanət verib" - bu sözləri isə Ermənistan Boks Federasiyasının mətbuat xidmətinin rəhbəri Ervand Hakobyan özünün "Facebook" səhifəsində yazıb. Ermənistanda "Facebook" istifadəçiləri E.Hakobyanın bu sözlərinə müxtəlif şərhlər yazaraq öz fikirlərini bildiriblər. Onların bəziləri Mxitaryanı qorxaq adlandıraraq qeyd ediblər ki, erməni güləşçilər beynəlxalq yarışlarda, xüsusilə 2007-ci ildə keçirilən güləş üzrə dünya çempionatında və 2015-ci ildə təşkil olunan birinci Avropa Oyunlarında iştirak etmək üçün Bakıya gediblər.

Belə misalları çox çəkmək olar. Ancaq Mxitaryan çətin ki, əvvəlcədən başına soxduğu bu mənasız fikri çıxara. Onsuz da gecdi. Çünki artıq "Arsenal" klubunun futbolçuları Bakıya gəliblər və onlar üçün yaradılan şəraitdən heç də narazı görünmürlər...

# Nüfuzlu beynəlxalq yarışların keçirildiyi unikal məkan



Sevinc Azadi

Bu gün Azərbaycan, xüsusən də paytaxt Bakı bir çox önəmli beynəlxalq tədbirlərin, forumların, nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrilib. Bu tədbirlərin keçirilməsi Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən göstərilən yüksək diqqətin ifadəsidir. Bu yüksək diqqətin göstərilməsi üçün səbəb Azərbaycanın, Bakı şəhərinin yüksək inkişafı, burada lazımi infrastrukturun yaradılmasıdır. Bütövlükdə isə bu, ölkəmizin dünya siyasətində rolunun yüksəlməsi ilə bilavasitə əlaqədardır. Azərbaycan artıq nəinki beynəlxalq tədbirlərə ev sahibliyi edir, hətta bu sahədə yeni ənənələrin yaranmasının təşkilatçısı kimi də çıxış edir. Son illər ölkəmizin dünyada nüfuzunun daha da artması, beynəlxalq miqyaslı tədbirlərin Azərbaycanda keçirilməsi, o cümlədən paytaxt Bakının 2012-ci il Avroviziya Mahnı Müsabiqəsi, Bakı-2015: I Avropa Oyunları, Formula -1 Bakı Qran Prisi, Bakı-2016: Ümumdünya Şahmat Olimpiadası, Bədii Gimnastika üzrə Avropa Çempionatları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, Peşəkar Boks üzrə Beynəlxalq Turnir və sair kimi yarışlara ev sahibliyi etməsi ölkəmizin dünyada həm də bir idman ölkəsi kimi tanınmasına səbəb olub.

Məhz bunun nəticəsidir ki, UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun keçirilməsi Azərbaycana həvalə edilib. Bu, beynəlxalq idman federasiyalarının respublikamızda idman işlərə, həmçinin idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin daha bir təzahürüdür desək yanılmarıq.

Artıq final oyununun keçirilməsinə az qalır. Bu mühüm yarışma ərəfəsində də ölkəmizin uğurlarını həzm edə bilməyən bəzi anti-Azərbaycan qüvvələrin növbəti çirkin kampaniyanın başlaması heç də təsadüfi olmadı. Bir müddət öncə Böyük Britaniya Xarici İşlər Nazirliyinin (XİN) heç cür anlaşılmayan, izahı mümkün olmayan, başa düşülməyən və qəbul edilməyən tövsiyə xarakterli bəyanatı buna misaldır. Lakin bu gün hər kəs bilir ki, Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi qəbul olunur. Ölkəmizdə hər bir vətəndaşın, o cümlədən Azərbaycana gələn turistlərin təhlükəsizliyi ən yüksək səviyyədə təmin edilir. Azərbaycan çoxsaylı mötəbər beynəlxalq tədbirlərə, beynəlxalq miqyaslı idman yarışlarına uğurla ev sahibliyi edir. Elə UEFA və FIFA bayrağı altında keçirilən tədbirlərin də yüksək səviyyədə baş tutduğunu xatırlatmaq yerinə düşər. Məlumdur ki, bu günə qədər Bakı istər futbol üzrə dünya və Avropa çempionatlarının seçmə mərhələdəki görüşlərinə, istərsə də UEFA Çempionlar Liqası və Avroliqanın qrup mərhələsindəki oyunlarına ev sahibliyi edib və bu zaman təşkilatçılıq baxımından paytaxtımız heç də Avropanın digər şəhərlərindən geri qalmayıb. Bu idman yarışlarını izləmək məqsədilə ölkəmizə gələn çoxsaylı əcnəbilər Azərbaycanda ictimai asayişin təmin olunmasından, mövcud olan sabitlik və təhlükəsizlik mühitindən və bu kimi böyükmiqyaslı idman tədbirlərinin təşkilatçılığından daima məmnun qalıblar. Odur ki, xarici anti-Azərbaycan dairələrin ölkəmizə qarşı qərəzli kampaniyası bu dəfə də heç bir nəticə verməyəcək. Bu mövzuda qərəzli açıqlamalar verən, idman hadisəsini siyasiləşdirərək Azərbaycan haqqında beynəlxalq ictimai rəyi çaşdırmağa və yanlış yönləndirməyə xidmət edən fikirlər səsləndirən qurum və şəxslərə ən gözəl cavabı yenə də Azərbaycan xalqı verəcək. Bakıda Avroliqanın finalı ən yüksək standartlara uyğun keçiriləcək.

Nəinki UEFA Avropa Liqasının final matçını, həmçinin qarşıda bizi gözləyən daha bir beynəlxalq idman yarışını da ən yüksək səviyyədə təşkil edəcəyi şübhəsizdir. Söhbət 2019-cu ilin 20-28 iyul tarixlərində Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalından (AGYOF) gedir. AGYOF-un açılış mərasimi iyulun 21-də təşkil olunacaq. Ümumilikdə 50 Avropa ölkəsindən 3 min 600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışa qatılmaq üçün ölkəmizə təşrif buyuracaq. On idman növü - bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş üzrə keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq. Qeyd edək ki, birinci festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. Bu tədbir iki ildə bir dəfə, cüt deyil, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Bu festivala ev sahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən kvalifikasiya raundu olmadan iştirak etmək hüququnu qazanır. Bu yarışın Azərbaycan gəncləri, idmançıları üçün önəmi və perspektivi böyükdür. Festival 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarına trampilin rolunu oynayacaq. Yəni, Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalında qalib olacaq idmançılar bir il sonra Tokioda keçiriləcək olimpiadaya özlərini hazır saya biləcəklər. Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində idman gimnastikası üzrə yarışlar da məhz Milli Gimnastika Arenasında təşkil olunacaq. İlin sonuncu yarışı sentyabrın 16-22-də keçiriləcək bədii gimnastika üzrə dünya çempionatıdır.

Tam əminliklə demək olar ki, bu il də Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlayacaq, müxtəlif idman növlərini əhatə edən mühüm beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə uğurla ev sahibliyi edəcək.

## "SHELL" ALBANİYADA EHTİYAT ƏLDƏ EDİB

"Royal Dutch Shell" enerji şirkətinin Albaniya qolu mərkəzi Albaniyada qazdığı "Şpiraq 4" quyusundan neft əldə edib. Quyuda gündəlik bir neçə min barrel neft axını qeydə alınıb. Hazırda quyunun sənaye əhəmiyyətli ehtiyatının həcminin müəyyənləşdirilməsi üçün işlər aparılır.

"İlkin sınaq işləri bu kəşfin potensialını üzə çıxardı, lakin biz Albaniyada biznesimizi daha da genişləndirmək istəyirik",-deyə "Shell"in kəşfiyyat üzrə icraçı vitse-prezidenti Mark Gerrits bildirib.

O qeyd edib ki, "Şpiraq" quyusunda sənaye əhəmiyyətli ehtiyat əldə etmək üçün çoxlu qiymətləndirmə işləri görülməlidir. Mark Gerrits sözügedən quyunun ərazisinin geoloji quruluşunun İtaliyanın "Val D'Agri" və "Tempa Rossa" yataqları ilə oxşar olduğunu vurğulayıb.

## HƏRRAC TƏXİRƏ SALINACAQ



Braziliyanın "ANP" milli neft, təbii qaz və bioyanacaq agentliyinin prezidenti Desio Oddone bildirib ki, cari ilin ikinci yarısında keçirilməsi planlaşdırılan üç əhəmiyyətli auksion 2020-ci ilədək təxirə salına bilər. "Hərracın biznes tərəflərinin təhlili üçün vaxt qazanmaq və onun məsul təşkilatçısı olaraq proseslərlə bağlı tapşırıqları yerinə yetirmək baxımından bu gecikmə bizim xeyrimizə oldu", - deyə o qeyd edib.

Oddone onu da bildirib ki, "ANP" növbəti iki ay ərzində təbii qazın qiymətləndirilməsində şəffaflığı inkişaf etdirmək məqsədilə qərar qəbul edəcək.

"Şəffaflıq və rəqabət ədalətli qiymətlərə səbəb olacaq",- deyə "ANP" prezidenti vurğulayıb.

## QAZ MÜQAVİLƏSİNİN MÜDDƏTİ UZADILACAQ



İtaliyanın "Eni" beynəlxalq enerji şirkəti Əlcəzairin "Sonatrach" dövlət enerji şirkəti ilə qaz təchizatı müqaviləsini uzatmaq qərarına gəlib.

İtaliyaya idxal edilən qazın ümumi həcminin 15%-ni Əlcəzair qazı təşkil edir. Yeni müqavilə ilə şirkətlər 40 illik əməkdaşlığı 2027-ci ilədək uzadacaqlar. Bundan əlavə, müqavilənin şərtlərində 2029-cu ilədək, saha iki il uzatmaq seçimi də olacaq. Təbii qazın Əlcəzairdən Trans-Aralıq boru kəməri vasitəsilə daşınması nəzərdə tutulur. Bu kəmərin gündəlik daşıma gücü 90 milyon kubmetr təşkil edir.

"Eni"nin baş icraçı direktoru Claudio Descalzi "Sonatrach" şirkəti ilə strateji əməkdaşlığın davam etdirilməsindən məmnun olduğunu dilə gətirib.

Xatırladaq ki, ötən il İtaliya Əlcəzairdən 16,8 milyard kubmetr qaz idxal edib və Əlcəzair İtaliyanın başlıca qaz təchizatçısı hesab edilir.

## SIZAN NEFT GÖLÜ VƏ ƏTRAF ƏRAZİNİ ÇİRKLƏNDİRİB



ABŞ-ın Luiziana ştatındakı Houma şəhərinin Sahil Gözətçiliyi və Dəniz Suları Təhlükəsizliyi Departamentinin verdiyi məlumata görə, "Bowley Cap" avadanlığından Qalliano yaxınlığında yerləşən Bully Bonds gölünə xam neft sızaraq gölü və ətraf ərazini çirkləndirib. Birləşmiş Ştatların Sahil Gözətçiliyi Departamenti dövlət və federal agentliklər sızmanın Qalliano yaxınlığındakı bataqlığa da axdığını bildirib. Səlahiyyətli şəxslərin verdikləri məlumata görə, 2100 qalon xam neft "Bowley Cap" avadanlığından sızaraq Bully Bonds gölünə tökülüb. Buna avadanlıqda baş verən mexaniki problem səbəb olub. Baş verən hadisə nəzarət altına alınıb.

"İki sahil" "nola.com" saytına istinadən xəbər verir ki, əlaqədar qurumlar baş verən hadisə ilə bağlı tədbir görməyə başlayıblar. Hazırda sızmanın səbəbi araşdırılır və ərazidə aparılan təmizləmə işləri artıq yekunlaşmaq üzrədir.

## "NAPHTHA ISRAEL PETROLEUM" "İSRAMCO" AKTİVLƏRİNİ ALIR

İsrailin "Naphtha Israel Petroleum Corp. Ltd" şirkəti "İsramco" neft və qaz aktivlərini nağd almaqla bağlı müqavilə imzalayıb. Luiziana, Texas, Yeni Meksika və Oklahoma, Utah və Koloradoda yerləşən neft və qaz ehtiyatları və Luziana və Texasdakı 422 quyu "İsramco" aktivinə daxildir.

Qeyd edək ki, sözügedən aktivə İsrailin ofşor hissəsində yerləşən "Tamar" qaz yatağındakı kiçikhəcmli ehtiyat da daxildir. "Tamar" qaz yatağından keçən il gündəlik orta hesabla 3,750 barrel ehtiyat hasil olunub.

"İki sahil" "ogj.com" saytına istinadən xəbər verir ki, "Naphtha" İsrailin mühüm şirkətlərindən biri hesab olunur və təkcə neft və qaz sahəsində deyil , eləcə də İsrail və Avropada ticarət sahəsində daşınmaz əmlak və mehmanxana idarəçiliyində maraqları olan bir şirkətdir.

# BSU-da ümumrespublika konfransı





Bakı Slavyan Universitetində (BSU) ERASMUS+ Petra layihəsi çərçivəsində Azərbaycanda Alman Dili Müəllimləri Birliyi tərəfindən orta və ali məktəblərdə alman dilini tədris edən müəllimlər üçün ümumrespublika konfransı keçirilib.

Üç gün davam edən konfransa Bakı, Abşeron, Sumqayıt, Gəncə, Biləsuvar, Beyləqan üzrə orta və ali məktəblərdən ümumilikdə alman dilini tədris edən 41 müəllim qatılıb.

Konfrans çərçivəsində müəllimlər üçün treninqlər təşkil olunub. Treninqi açan BSU-nun elmi işlər üzrə prorektoru, professor R.Novruzov Almaniya ilə əlaqələrin ildən-ilə genişləndiyi bir dövrdə alman dilinə diqqət yetirilməsinin təbii olduğunu bildirib. O, BSU-da alman dilinin tədrisinin ənənəsi olduğunu qeyd edib. Treninqlərdən öncə Azərbaycanda Alman Dili Müəllimləri Birliyinin İdarə Heyətinin üzvləri konfrans barədə ətraflı məlumat veriblər.

Azərbaycanda Alman Dili Müəllimləri Birliyinin sədri, Azərbaycan Dillər Universitetinin (ADU) Tərcümə fakültəsinin müəllimi Lətifə Qurbanova Birliyin fəaliyyəti barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, 2018-ci il 13 oktyabr tarixində yaradılan Birliyin başlıca məqsədi Azərbaycanın orta və ali məktəblərində alman dili fənnini tədris edən müəllimləri öz ətrafında birləşdirmək, ölkəmizdə alman dilinin inkişafına yeni töhfələr vermək, birlik ətrafında geniş şəbəkə yaratmaqdır. Azərbaycanda Alman Dili Müəllimləri Birliyinin 100-dən artıq üzvü olduğunu deyən sədr bildirib ki, BSU-da keçirilən konfrans birliyin qısa vaxt ərzində respublika üzrə artıq üçüncü konfransıdır. O deyib ki, daha əvvəl Gəncə və Bakıda orta məktəblərdə alman dilini tədris edən müəllimlər üçün treninqlər keçirilmişdisə, BSU-da keçirilən treninqlərə ali məktəb müəllimləri də cəlb olunub.

BSU-nun Alman filologiyası kafedrasının müdiri Sevinc Rzayeva bildirib ki, treninqlərin təşkil olunmasında məqsəd alman dilli müəllimlərin gələcəkdə xarici ölkələrdə seminar və təkmilləşdirmə kurslarında iştirakını təmin etmək, onlara beynəlxalq qrant və təqaüdlər qazandırmaq, elmi tədqiqat işləri aparmalarına köməklik göstərməkdir. S.Rzayeva konfransa qatılan müəllimlərə sonda sertifikat təqdim olunacağını qeyd edib.

YFU Azərbaycan Şagird Mübadiləsi Təşkilatının sədri Mina Rzayeva Alman Dili Müəllimləri Birliyinin perspektivindən və planlarından danışaraq qeyd edib ki, qurum Beynəlxalq Alman Dili Müəllimləri Birliyinə üzv olmaq istiqamətində mühüm işlər görür, beynəlxalq əməkdaşlığını genişləndirir.

Almaniyanın Höte adına Dövlət Mədəniyyət İnstitutunun tərəfdaşı olan Azərbaycanda Alman Dili Tədrisi Mərkəzinin rəhbəri Zəhra Alıyeva BSU-dakı konfransın Alman Akademik Mübadilə Xidməti (DAAD) və Avstriya Akademik Mübadilə Xidmətinin (OEAD) dəstəyi ilə keçirildiyini bildirib. O deyib ki, DAAD-ın nümayəndələri Rusudan Abşilova, Mara Liza Gezer, OEAD-ın nümayəndəsi Ştefani Matser üç günlük treninqlər çərçivəsində BSU-da mühazirə oxuyacaqlar.

Azərbaycanda Alman Dili Tədrisi Mərkəzinə Almaniyadan təcrübə keçmək üçün gələn Müriel Mathez BSU-da təşkil olunan konfransın işində könüllü iştirak etdiyini bildirib, Azərbaycan barədə müsbət fikirlərini bölüşüb.

Sonda iştirakçılar BSU-nun rəhbərliyinə yüksək səviyyəli təşkilatçılığa görə minnətdarlıq ediblər.

**Nərgiz Nəcəfli**

# "SOCAR AQŞ" "Günəşli"də daha bir quyuda qazma işlərinə başlayıb



"SOCAR AQŞ" Xəzərdə 4 neft və qaz yatağında, o cümlədən dayazsulu "Günəşli", "Qərbi Abşeron", "Ümid" və "Bulla" yataqlarında mövcud olan 5 platformada 6 qazma qurğusu vasitəsilə qazma işlərini aparır. Kompleks qazma və quyu xidmətləri göstərən "SOCAR AQŞ" bu günlərdə 7 saylı stasionar dəniz özülündən faktiki dərinliyi 2713 metr olan 339 nömrəli quyunun tikintisi işlərini təhlükəsiz, keyfiyyətlə, vaxtından tez və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb.

Müəssisə, eyni zamanda, 7 saylı özüldən layihə dərinliyi 4150 metr olan Qala lay dəstəsinə qazılan 38 nömrəli kəşfiyyat quyusunda və layihə dərinliyi 2670 metr olan Balaxanı lay dəstəsi -X horizonta qazılan 342 nömrəli quyuda qazma işlərinə start verib.

Qeyd edək ki, müəssisə 7 saylı stasionar dəniz özülündə, eyni zamanda, iki qazma qurğusundan istifadə edərək quyu tikintisi işlərini davam etdirir. "SOCAR AQŞ" "Günəşli" yatağında "Hong Hua ZJ 70/4500 DZ" qazma qurğusu vasitəsilə özüldən 38 və eyni özüldə ikinci qazma qurğusu, yeni nəsil qazma avadanlığı olan "Bentec 3000 HP" vasitəsilə 342 nömrəli quyuların qazılmasını həyata keçirir.

Bununla yanaşı, "SOCAR AQŞ" sifarişçisi SOCAR-ın "Azneft" İstehsalat Birliyi olan dayazsulu "Günəşli" yatağında 11 saylı özüldən 346 nömrəli quyuda qazma işlərinə başlayıb.

Qeyd edək ki, 346 nömrəli quyunun Fasilə lay dəstəsinə qazılması planlaşdırılır və quyunun layihə dərinliyi 3550 metr təşkil edir.

Dəyərlərinə daim sadiq qalan "SOCAR AQŞ" həmişə olduğu kimi, bu və növbəti quyuları da sağlamlıq, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcək.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Qaz İxrac” İdarəsi

**Hacıqabul MQKS-nin Hacıqabul KS-də istismarda olan 4 ədəd 280-12-7 markalı mərkəzdənqaçan sıxıcı ilə qaz ötürücü aqreqatlarının CTD-4000-2 (6 kV) sinxron elektrik mühərriklərinin idarəetmə dövrəsində və BTE 315/320 tipli tiristor elektron təsirləndirici şkaflarında təftiş, sınaq-sazlama və illik xidmət işlərinə olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22011XM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 17.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 25.06.2019-cu il, Bakı vaxtı ilə saat 11.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV ilə birlikdə), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.
**Əlaqələndirici şəxs:**
Elvin Mürsəlli (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22183) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 83
elvin.murselli@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 25.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Qaz İxrac” İdarəsinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya İdarəsi

**Ekoloji Ölçmə Mərkəzi və Kompleks Tədqiqatlar Laboratoriyasını tələb olunan ölçmə cihazları və laboratoriya malları ilə təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21004-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.06.2019-cu il , Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 13.06.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 118 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı ( nəzərdə tutulmur):***

Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.
Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 90 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1029____________________(indeks nömrəsi);
Bakı şəhəri____________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121________________(yerləşdiyi küçə və ya prospekt);
“SOCAR TOWER” 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).
**Əlaqələndirici şəxs:**
Mirzəyev İsmayıl _______________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______ (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 ________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az _(əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 13.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv



GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 96 (7351) / Çərşənbə axşamı, 28 may 2019-cu il

# "Neftçi İdman Klubu" mini-futbol turniri keçirdi



"Neftçi İdman Klubu" neft, qaz və kimya sənayesi işçiləri arasında növbəti dəfə mini-futbol turniri keçirdi. 28 May - Respublika Gününə həsr olunmuş yarışda dörd qrupda olmaqla 12 komanda mübarizə aparırdı. "A" qrupunda "Azərikimya" İstehsalat Birliyi, "SOCAR Petroleum" Qapalı Səhmdar Cəmiyyəti, Geofizika və Geologiya İdarəsi, "B" qrupunda "Suraxanı Oyl" Əməliyyat Şirkəti, "Qaz İxrac" İdarəsi, Heydər Əliyev adına Neft Emalı Zavodu, "C" qrupunda Qaz Emalı Zavodu, Nəqliyyat İdarəsi, "Bos Şelf" MMC, "D" qrupunda isə "Neftqaztikinti" Tresti, "Azneft" İstehsalat Birliyi və Təhlükəsizlik İdarəsinin komandaları təmsil olunmuşdular.

Beş gün davam edən (20-25 may) turnirin keçirilməsində əsas məqsəd neft, qaz və kimya sənayesi işçilərinin sağlamlıqlarının qorunması, onların asudə vaxtlarının səmərəli təşkil olunması, eləcə də bu idman növünün kütləviləşməsinə köməklik göstərilməsi və 28 May - Respublika Gününün daha təntənəli qeyd edilməsi idi.



Suraxanı qəsəbəsindəki Tofiq İsmayılov adına Olimpiya Təlim-İdman Kompleksində təşkil olunan yarışda finala "Qaz İxrac" və "Suraxanı Oyl" komandaları vəsiqə qazandılar. Həlledici qarşılaşmada "Suraxanı Oyl" daha üstün oyun nümayiş etdirdi və rəqibini 5:2 hesabı ilə məğlub etdi. Beləliklə, "Suraxanı Oyl" komandası mini-futbol turnirinin qalibi adını qazandı. "Qaz İxrac" idarəsi 2-ci, "Bos Şelf" komandası isə 3-cü yeri tutdu.

Həmişə olduğu kimi, bu dəfə də klubumuz "ən yaxşı qapıçı", "ən yaxşı oyunçu" və "ən məhsuldar oyunçu" nominasiyaları üzrə mükafatlar təsis etmişdi. Bu nominasiyaların qalibi adına müvafiq olaraq, Ceyhun Zeynalov ("Qaz İxrac" İdarəsi), Rəhman İsrafilov ("Suraxanı Oyl") və Ruslan Sorokin ("Bos Şelf") layiq görüldülər.

Sonda təşkil olunan mükafatlandırma mərasimində "Neftçi İdman Klubu"nun kütləvi bədən tərbiyəsi üzrə meneceri Akif Məmmədov çıxış edərək yarış iştirakçılarını 28 May - Respublika Günü münasibətilə klubun rəhbərliyi və şəxsən idarəetmə aparatının rəhbəri Sadıq Sadıqovun adından təbrik etdi. Ölkəmizdə bədən tərbiyəsi və idmana göstərilən dövlət qayğısından geniş söhbət açan klub rəsmisi son illər respublikamızda təşkil olunan çoxsaylı möhtəşəm tədbirlərdən və onların əhəmiyyətindən danışdı. O, belə tədbirlərdən birinin - mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final oyununun ("Arsenal" - "Çelsi") da yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi.

Turnirdə fəal iştirak etdiklərinə görə yarış iştirakçılarına dərin minnətdarlığını bildirən natiq onlara gələcək fəaliyyətlərində uğur dilədi. Sonra o, qalib komandalara qazandıqları qələbə münasibətilə təbriklərini çatdırdı.

Qalib və mükafatçı komandalara "Neftçi İdman Klubu" tərəfindən kubok, diplom və xatirə hədiyyələri təqdim olundu. Nominasiya qaliblələri də diplom və hədiyyələrlə mükafatlandırıldılar.

## Neymarın "Real"dan əsas tələbi



PSJ-nin futbolçusu Neymar karyerasını "Real"da davam etdirə bilər.

Milli.Az xəbər verir ki, braziliyalı hücumçu Madrid təmsilçisinin rəhbərliyindən həftəlik 1,3 milyon avro məvacib tələb edib. Bu barədə "The Sun" nəşri məlumat yayıb. "Real" rəhbərliyi bu məbləği ödəməyə razılıq versə, Neymar "kral klubu"na keçəcək.

Hazırda PSJ-də həftəlik 700 min avro qazanan Neymarın Paris təmsilçisiylə 2022-ci ilə qədər müqaviləsi var.

Neymar PSJ-yə "Barselona"dan transfer olunub.

## Ronaldu 13 il sonra bunu da yaşadı

İtaliya A Seriyasında 2018/19 mövsümünə yekun vurulub.

Milli.Az xəbər verir ki, "Sampdoriya"nın hücumçusu Fabio Kvalyarella 26 qolla cari mövsümün bombardiri olub. İkinci pillədə 23 qolla "Atalanta"dan Duvan Zapata, 3-cü pillədə isə 22 qolla "Milan"dan Kşiştof Pyontek yer alıb.

"Yuventus"un hücumçusu Kriştiano Ronaldo isə 4-cü sırada yer alıb. Portuqaliyalı hücumçu A Seriyasında cari mövsümü 21 qolla tamamlayıb. Ronaldo, son 13 ildə ilk dəfə iştirak etdiyi çempionatlarda mövsümü bom-



bardirlər siyahısında ilk 3-lükdən kənarda tamamlayıb. 34 yaşlı hücumçu son dəfə 2006-cı ildə, "Mançester Yunayted"in heyətində bir mövsümdə 9 qol vuraraq, bombardirlər siyahısında ilk 3-lüyə düşə bilməmişdi.



## Maraqlı faktlar toplusu

1331-ci ildə dünyasını dəyişən Mansa Musanın 400. 000. 000. 000 dollar dəyərində sərvəti olub.

Dünyanın qurtaracağı İngiltərənin Sussak adlı şəhəridir.

Evsiz bir adam türməyə düşmək üçün bankdan 1 dollar pul oğurlayır və sonra da polisə təslim olur. Beləliklə, onun yeməyə yeməyi və yatmağa yeri olur.

Kolibri quşlarının metabolizmləri o qədər sürətli çalışır ki, bir-iki saat müddətində ac qalmaq onları öldürə bilər.

Bumslanq adlı ilan (ağac ilanı) insanı sancarsa, həmin insanın ağız, burun və qulaq dəliklərindən bədəndə olan qanın hamısı boşalmağa başlayır.

Bəzi pişiklərin insana qarşı allergiyası vardır.

Amazon meşələri dünyada lazım olan oksigenin demək olar ki yarısından çoxunu təmin edir.

Əgər insanların gözləri qartalın gözü kimi yaxşı görə bilsəydi, o zaman insan 10 mərtəbəli bina yüksəkliyindən yerdə gəzən qarışqanı belə görə bilərdi.

Aparılan araşdırmalara görə, 8 saatlıq iş rejimində insanlar cəmi 2 saat 53 dəqiqə məhsuldar ola bilirlər.

Veronika Seyder adında bir qadının gözləri adi insanlardan fərqli olaraq 20 dəfə yaxşı görür. O, 1,6 kilometr uzaqlıqdan bir insanın üzünün bütün cizgilərini aydın görə bilir.

İnsan öldükdən sonra beyin 7 dəqiqə işləməyə davam edir. Bu zaman ərzində keçmişdə yaşadığı hər şey ölən insanın gözünün önündən gəlib keçir.

Alyaskada tərəvəzlər həddindən artıq böyük olur. Səbəbi isə gün ərzində tərəvəzlərin 20 saat günəş ala bilmələridir.

Rüşvət ala bilməsinlər deyə hakim və vəkillərin xidməti formalarının nə bağlana bilən düyməsi, nə də ki, cibi olur.

Çəyirtkənin qulaqları onun dizlərində olur.

Yapon alimləri insanların gördükləri yuxunu yaddaşda saxlaya bilən və oyandıqları zaman gördükləri yuxunu izləyə bilmələri üçün yeni texniki vasitə icad ediblər.

Əgər zaman dayansa insan heç bir şey görə bilməz. Çünki gözümüzə dəyən və lazım olan işıq zərrəcikləri də dayanmış olar.

Dünyanın ən zəhərli heyvanı Kolumbiya qurbağasıdır. Onun zəhəri eyni anda 150 insanı və 30.000 siçanı öldürə bilmək qabiliyyətinə malikdir.

Heç bilirdinizmi ki, insanın ağ ciyərlərini kondisionerə yerləşdirmək mümkün olsaydı, həmin mühitdəki havada heç bir bakteriya qalmazdı, həmçinin hava da tərtəmiz olardı.

Bir insan sevdiyi insanı görən zaman göz bəbəyi böyüyür.

Avtomobillə Aya getmək mümkün olsaydı, saatda 100 kilometr sürətlə 60 günə oraya çatmaq mümkün olardı.

**Könül Əliyeva, *"İki sahil"***

TƏSİSÇİ: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ

Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab №AZ19AIIB380300194437 00306107 Kod № 200071 VÖEN: 2000157291

TELEFONLAR: Qəbul otağı: 530-26-46, 430-87-97; Baş redaktorun I müavini: 530-26-36; FAX: 430-87-47; Mühasibatlıq: 430-87-27; e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 28.05.2019-cu il saat 01:00

Qiyməti: 40 qəpik, Sayı: 8214

İndeks: 0151, Sifariş: 1791